AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 APREL 2019-cu il BAZAR № 74 (6401) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N 1, maddə 2, N 8, maddə 415; 2004, N 8, maddə 598; 2007, N 11, maddə 1053; 2011, N 6, maddə 483; 2017, N 1, maddə 5) 7.1-1-ci maddəsinin üçüncü cümləsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 7, maddə 812; 2016, N 11, maddə 1755, N 12, maddə 1996; 2017, N 3, maddə 334, N 5, maddələr 675, 748, N 6, maddə 1029, N 7, maddə 1307, N 12 (I kitab), maddə 2230; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1412-VQD nömrəli Qanunu) 4.7-ci maddəsinin dördüncü cümləsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 fevral 2019-cu il.**

## "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1518-VQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli 835 nömrəli və "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" 2015-ci il 14 iyul tarixli 554 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1518-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 2 yanvar tarixli 835 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, N 1, maddə 27; 2004, N 5, maddə 344; 2017, N 1, maddə 55, N 4, maddə 556) 2.2-ci bəndində "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi" sözləri "Prezidenti" sözləri ilə, nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. həmin Qanunun 7.1-1-ci maddəsinin üçüncü cümləsində "qurum" dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.".

**4.** "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-İVQ nömrəli Qanununun tətbiqi və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 noyabr tarixli 644 nömrəli Fərmanının ləğvi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 iyul tarixli 554 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 7, maddə 822; 2016, N 8, maddə 1384, N 11, maddə 1821, N 12, maddə 2062; 2017, N 3, maddə 354, N 7, maddə 1378, N 12 (I kitab), maddə 2295) aşağıdakı dəyişikliklər edilsin:

*4.1.* 2.1-ci bəndə "Qanununun" sözündən sonra "4.7-ci maddəsinin dördüncü cümləsində," sözləri əlavə edilsin;

*4.2.* 2.3-cü bənd ləğv edilsin;

*4.3.* 2.13-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.14-cü bənd əlavə edilsin:

"2.14. həmin Qanunun 4.7-ci maddəsinin dördüncü cümləsində "qurum" dedikdə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi nəzərdə tutulur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 aprel 2019-cu il.**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 10 milyonuncu sakinin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqını təbrik edirlər



**2019-cu il aprelin 6-da keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə Azərbaycan xalqını və uşağın valideynlərini təbrik edirlər.

**AZƏRTAC**

## "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Patent haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 5, maddə 414; 2004, N 7, maddə 505; 2006, N 2, maddə 64; 2009, N 12, maddə 951; 2012, N 7, maddə 644; 2013, N 3, maddə 211, N 12, maddə 1481; 2018, N 4, maddə 635; Azərbaycan Respublikasının 28 dekabr 2018-ci il tarixli 1412-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4.2-ci maddə ləğv edilsin.

**2.** 29-cu maddənin 6-cı hissəsində və 38-ci maddənin 1-ci hissəsində ismin müvafiq hallarında "rüsum" sözü ismin müvafiq hallarında "dövlət rüsumu" sözləri ilə əvəz edilsin.

**3.** 32-ci maddənin 1-ci hissəsinin birinci abzasında, 4-cü hissəsində, 35-ci maddənin 2-ci hissəsinin ikinci abzasında ismin müvafiq hallarında "haqq" sözü ismin müvafiq hallarında "dövlət rüsumu" sözləri ilə əvəz edilsin.

**4.** 39.2-ci maddəyə "xidmətlərə" sözündən sonra "və həmin xidmətlərlə əlaqədar siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən digər xidmətlərə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 19 fevral 2019-cu il.**

## "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1510-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* "Patent haqqında" Azərbaycan Respublikası Qanununun 39.2-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin həmin Qanunda nəzərdə tutulan xidmətlərlə əlaqədar haqq ödənilməklə həyata keçirəcəyi digər xidmətlərin siyahısını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində müəyyən etsin;

*1.4.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.5.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Müəyyən edilsin ki:

*2.1.* "Patent haqqında" Azərbaycan Respublikası Qanununun 39.2-ci maddəsində ikinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*2.2.* həmin Qanunun 39.2-ci maddəsində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 5 aprel 2019-cu il.**

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

# QƏRAR

## № 150

**Bakı şəhəri, 5 aprel 2019-cu il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişikliklər edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 11, maddə 2164; 2018, N 3, maddə 586, N 9, maddə 1904, N 10, maddə 2169, N 11, maddə 2427; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 yanvar tarixli 4 nömrəli və 5 fevral tarixli 34 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 0701 10 000 1 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "0" rəqəmi "0 (30.04.2019-cu il tarixinədək 1 kq - 1,0 ABŞ dolları*) sözləri ilə və 0701 10 000 9, 0701 90 100 0, 0701 90 500 0, 0701 90 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmi "15 (30.04.2019-cu il tarixinədək 1 kq - 1,0 ABŞ dolları*) sözləri ilə əvəz edilsin;

*1.2.* 0703 10 190 0, 0703 10 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda (15.12.2019-cu il tarixinədək 1 kq - 0,6 ABŞ dolları) sözləri (31.05.2019-cu il tarixinədək 1 kq - 2,0 ABŞ dolları*) sözləri ilə və 0704 90 100 0, 0704 90 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmi "15 (31.05.2019-cu il tarixinədək 1 kq - 2,0 ABŞ dolları*) sözləri ilə əvəz edilsin.

*1.3.* "QRUP 07"nin cədvəlindən sonra aşağıdakı məzmunda "Qeyd" əlavə edilsin:

**"Qeyd.**

Bu mal qrupuna daxil olan alt yarımmövqelərinin 4-cü sütununda qeyd edilmiş ulduz işarəsi ixrac gömrük rüsumlarının dərəcələrini göstərir.".

2. Bu Qərarın 1.1-ci bəndi 2019-cu il aprelin 30-dək, 1.2-ci və 1.3-cü bəndləri 2019-cu il mayın 31-dək qüvvədədir.

**Azərbaycan Respublikasının Baş naziri,**
**Novruz MƏMMƏDOV.**

# Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar, ilk növbədə, vətəndaşların maraqlarına xidmət edir






**Aprelin 6-da Sabirabad şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə uğurla reallaşdırılan islahatlara həsr olunmuş regional müşavirə keçirilib. Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov və Milli Məclisin bir qrup deputatı müşavirədə iştirak edib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Sabirabad şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.

Müşavirədə Yeni Azərbaycan Partiyasının Mil-Muğan bölgəsi üzrə rayon təşkilatlarının fəalları, eləcə də Sabirabad rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

YAP siyasi şöbəsinin üzvü, Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov müşavirəni açaraq, ölkəmizdə aparılan uğurlu sosial-iqtisadi islahatlardan danışıb.

Müşavirədə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə çox uğurla həyata keçirilən, ilk növbədə, ölkə vətəndaşının mənafeyinin və hüquqlarının üstünlüyünü hədəf seçmiş islahatlardan söz açıb. Baş nazirin müavini qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən 2019-cu ildə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar nəticəsində ölkəmizdə təqaüdlərin 116 manatdan 160 manata, yəni 38 faiz artması nəticəsində 300 min vətəndaşın həyatında müsbətə doğru dəyişiklik baş verib: "Eyni zamanda, bu və ya digər xarakterli müavinətlər, güzəştlər alan vətəndaşlar say etibarilə ciddi şəkildə çoxalıb. Büdcə vəsaitlərinin ciddi şəkildə artımı nəticəsində Azərbaycan əhalisinin əhəmiyyətli kəsimi, xüsusilə aztəminatlı hissəsinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə əlaqədar çox ciddi işlər həyata keçirilib. Hesab edirik ki, görülən işlər sosial problemlərin həlli istiqamətində Azərbaycanda çox ciddi addımların atılmasından xəbər verir".

Qeyd olunub ki, dövlətimizin başçısının rəhbərliyi ilə uğurla həyata keçirilən davamlı islahatlar, ilk növbədə, vətəndaşların maraqlarına xidmət edir. Baş nazirin müavini həyata keçirilən dövlət proqramlarından, bölgələrdə və Bakı şəhərində reallaşan böyük infrastruktur layihələrinin əhəmiyyətindən bəhs edərək bildirib ki, bu gün Azərbaycan vətəndaşının sosial təminatı əhəmiyyətli dərəcədə yüksəlib, insanların sosial-rifah halı müqayisəolunmaz dərəcədə dəyişib, bütün bunlarla paralel olaraq, Azərbaycanın siması da tanınmaz şəkildə yenilənib. Nəzərə çatdırılıb ki, bu gün Azərbaycanda görülən böyük işlər, hökumət-vətəndaş münasibətləri, xüsusilə son zamanlar imzalanmış sərəncam və fərmanlar bir daha sübut etdi ki, Prezident İlham Əliyev hər zaman ölkə vətəndaşının yanındadır.

Baş nazirin müavini Əli Əhmədov çıxışında dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın öz dinamik inkişafını təmin etdiyini və ölkəmizin əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşadığını bildirib. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial islahatlar məqsədyönlü dövlət siyasətinin mühüm tərkib hissəsidir.

Əli Əhmədov deyib: "Təbii ki, insanların sosial həyatının yaxşılaşdırılması, həyat səviyyəsinin, bütövlükdə ölkədə həyat səviyyəsinin artırılmasının vacib istiqamətlərindən biri insanların işlə təmin edilməsidir. Sabirabadda da bu istiqamətdə çox böyük işlər görülür, bütövlükdə Azərbaycanda son 15 il ərzində insanların işlə təmin olunması istiqamətində əhəmiyyətli addımlar atılıb. İki milyona yaxın yeni iş yerinin yaradılması Azərbaycan Prezidentinin atdığı ən ciddi sosial addımdır. İnsanların həyatının yaxşılaşdırılması Azərbaycan dövlətinin, ölkə Prezidentinin həyata keçirdiyi strategiyanın əsasını təşkil edir".

Çıxışlarda Milli Məclisin deputatı Əhliman Əmiraslanov, YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, YAP Saatlı rayon təşkilatının sədri Lütfəli Şıxəliyev, YAP Beyləqan rayon təşkilatının sədri Rəfail Pətiyev, YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova və YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov mövzu ilə bağlı çıxış ediblər.

**AZƏRTAC**

# Azərbaycan regionda lider dövlət, iqtisadi və mədəni mərkəz, həm də təhlükəsizliyin, sabitliyin qarantıdır

## *Dövlət başçısı deyib ki, reallaşdırılan siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır və öz maraqlarını tam şəkildə qoruyur*

**Azərbaycanda sosial-iqtisadi inkişaf öz dinamizmini zəiflətmir. Həyatın bütün sahələrində hərtərəfli, geniş və yüksəktempli yüksəliş davam edir. Ölkədə müasir çağırışlara uyğun iqtisadi və siyasi islahatların aparılması, əfsanəvi görünən nəhəng layihələrin reallaşması bugünkü intensiv inkişafa imkan vermişdir.**

Düşünülmüş siyasətlə iqtisadi islahatların bir-birini tamamlaması ilə aparılması nəticəsində son on beş il ərzində iqtisadiyyat və sənaye ilbəil yeni mərhələyə qədəm qoyur. Prezident İlham Əliyev Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda iqtisadi inkişafın dinamizminin qorunması barədə deyib: "Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Yəni, bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır".

Aydındır ki, iqtisadi tərəqqi digər dövlətlərlə əməkdaşlıqda qarşılıqlı maraqların təmini nəticəsində meydana gəlir. Heç bir dövlət beynəlxalq iqtisadi-ticari əlaqələr qurmadan özü-özlüyündə inkişaf etmək iqtidarında deyil. Milli maraqlara əsaslanmayan əməkdaşlıq isə düşünülmüş iqtisadi siyasətlə qurulmasa, səmərəli ola bilməz. Bu gün Azərbaycanın yürütdüyü xarici siyasət şəffafdır, açıqdır, səmimidir, qarşılıqlı etimada əsaslanır, dünyada əməkdaşlığın genişlənməsinə, sabitliyə və qarşılıqlı maraqların təmininə xidmət edir. Bu isə dünyada sülhün, sabitliyin qorunmasına və digər dövlətlərdə sosial-iqtisadi inkişafa da imkan verən amildir. Azərbaycan rəhbərliyinin düşünülmüş siyasəti, operativ dəqiq mexanizmlərlə icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası, davamlı surətdə yaradılan müasir infrastrukturlar ölkənin daha yüksək mərhələyə çatmasına güclü və möhkəm zəmin yaradır. Təbii ki, bu yüksəliş iqtidar siyasətinin xalq tərəfindən dəstəklənməsi nəticəsində baş verir. Son on beş il ərzində iqtisadi inkişaf templəri ölkənin həm beynəlxalq mövqelərinin möhkəmlənməsi, həm də sosial sahədə böyük işlər görülməsinə imkan verib. Təsadüfi deyil ki, Azərbaycan hazırda mühüm beynəlxalq tədbirlərin keçirildiyi mərkəzlərdən birinə çevrilib. Belə ki, paytaxtımız artıq dünya miqyasında nadir bir dialoq-müzakirə meydanına çevrilibdir. Buna düşünülmüş siyasətlə çatılıb. Çünki bu gün Azərbaycan yerləşdiyi bölgənin həm iqtisadi, həm də mədəni mərkəzi mövqeyini əldə edib.

Azərbaycanda reallaşan nəhəng transmilli iqtisadi layihələr digər əlaqədar ölkələrin də maraqlarına xidmət edir, çünki bu əlaqələr onların da iqtisadiyyatının dirçəldilməsinə, tərəqqisinə, təbii ki, sosial rifahının yaxşılaşmasına da imkan yaradır. Uğurla həyata keçirilmiş neft-qaz sektoruna aid transmilli layihələr ölkənin real iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, olduqca geniş regional əməkdaşlıq üçün də möhkəm zəmin olub. Təsadüfi deyil ki, məhz Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin müvəffəqiyyətlə istismara verilməsi ilə Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol Transanadolu (TANAP) və Transadriatik (TAP) qaz kəmərləri layihələrinin tikintisinə əsas zəmin olmuşdur. Dövlət başçısı Azərbaycanın təşəbbüsçüsü olduğu transmilli layihələrin ölkəmizi regionun iqtisadi, tranzit və nəqliyyat mərkəzinə çevirdiyi barədə deyib: "Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin işə düşməsi çox böyük tarixi hadisədir. Əgər bu layihələr icra edilməsə idi, biz bu qədər vəsait əldə edə bilməzdik... Bu gün bu iki kəmər vasitəsilə resurslarımız dünya bazarlarına göndərilir. Hazırda Avropada ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin tikintisi sürətlə gedir. Dörd layihədən ibarət olan bu meqalayihə artıq son mərhələdədir. Dörd layihədən üçü istifadəyə verilib. Keçən il TANAP və Cənub Qaz Dəhlizinin açılışı olmuşdur və bunlar tarixi hadisədir. Biz neftdən, qazdan əldə edilmiş gəlirləri nəqliyyat sektoruna yönəltdik ki, Azərbaycan nəinki bu bölgədə, Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilsin. Bu gün biz artıq buna nail oluruq. Bakı-Tbilisi-Qars dəmir yolunun işə düşməsi tarixi layihədir... Bu gün "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində birləşən ölkələrin sayı 10-dan çoxdur və onların sayı daha da artacaq. Amma hər iki layihədə iştirak edən ölkə tək Azərbaycandır. Ona görə biz Avrasiyada çox strateji nəqliyyat mərkəzinə çevrilirik. Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, bizim yol infrastrukturlarımız, müasir və müasirləşən infrastruktur, bütün bunlar son illər ərzində yaradılıb. Əgər biz infrastruktur layihələrinə diqqət yetirməsəydik, bu gün heç bir inkişafdan söhbət gedə bilməzdi". Dövlət ölkənin hərtərəfli tərəqqisinə yönələn bu uğurlu siyasəti davam etdirməkdədir. Yeni infrastruktur layihələrinin həyata keçirilməsi də regionların inkişafına güclü təkan verib. İqtisadiyyatda çoxşaxəli inkişafa nail olmağın nəticəsidir ki, ümumi daxili məhsulun artımı davamlı hal alıb.

Bu transmilli layihələr sosial-iqtisadi inkişafı təmin etməklə bərabər, region dövlətlərinin siyasi bağlantılarının güclənməsinə, strateji tərəfdaşlığına səbəb olmaqla bərabər, ümumi daxili məhsul istehsalının artımına, dünya bazarlarında mövqelərinin möhkəmlənməsi, yenilərinə daxil olmalarına imkan yaradır. Bu proses qarşılıqlı mənafelərin ödənməsi deməkdir. Belə əlaqələrin genişliyi və davamlığı sülhə, dövlətlərarası əməkdaşlığa, dinc, yanaşı yaşayışa, siyasi sabitliyə çox mühüm dəstək və töhfədir. Harada qarşılıqlı maraqlara xidmət edən əlaqələr, siyasi sabitlik, milli-dini dözümlülük varsa, orada sosial-iqtisadi inkişaf və normal həyat tərzi də vardır. Ona görə də Azərbaycan rəhbərliyi regional əməkdaşlığın güclənməsində, genişlənməsində, qitələri əhatə etməsində öz səyini əsirgəmir. Bu gün İraqda, Suriyada baş verən qanlı toqquşmalar, insan faciələri Azərbaycanın yürütdüyü humanizmə, milli-dini dözümlülüyə, tolerantlığa, bir sözlə, multikulturalizmə əsaslanan siyasətin alternativi olmadığını bir daha təsdiq edir. Bir sözlə, Azərbaycandakı dinamik inkişafın əsasında siyasi sabitlik dayanır. Dövlət başçısı davamlı sosial-iqtisadi inkişafın əsas səbəbi barədə deyib: "Son 15 il ərzində dünyada müxtəlif proseslər gedib, dünya çox dəyişib. On beş il əvvəl vəziyyət tam fərqli idi, bu gün isə risklər, təhdidlər, münaqişə, müharibə ocaqları artır və bu meyil əfsuslar olsun ki, güclənir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, MDB məkanında, yaşadığımız regionda çox təhlükəli proseslər gedirdi və bu gün də gedir. Bu proseslər böyük fəlakətlərə gətirib çıxarıb. Milyonlarla insan müharibələrdən əziyyət çəkir. Milyonlarla insan həlak olub, yaralanıb, itkin düşüb, qaçqın-köçkün vəziyyətinə düşüb. Bəzi ölkələrin əksər hissələri tamamilə dağıdılıb. Bu, böyük humanitar fəlakətdir. Biz, demək olar ki, hər gün kütləvi informasiya vasitələrində bunu izləyirik və bu meyil əfsuslar olsun ki, davam edir. Bütün bu mənfi mənzərə fonunda bizim hökumət öz inamlı dinamik inkişaf strategiyasını icra edərək ölkəmizi irəliyə aparır.!

Yaşadığımız əsrin əvvəllərində BMT-nin Minilliyin sammitində Minilliyin İnkişafı Məqsədləri qəbul edilmişdir. İştirakçı hökumət başçıları da bəyan etmişdilər ki, onlar da minillik ərzində daha yaxşı cəmiyyət yaratmaq niyyətlərindədirlər. Həmin tədbirdən sonra məşhur siyasi, ictimai xadimlər, elm nümayəndələri müəyyən cəmiyyətlər təşkilatlar yaradıb bu istiqamətdə iş aparırlar. Lakin müasir bəşər həyatında dünya ölkələrinin bir çoxunda baş verən müharibələr, dini-milli zəmində baş verən toqquşmalar, müxtəlif humanitar fəlakətlər səngimir, hətta artır. Azərbaycanda, humanitar kataklizmlər baş verməyib. İnsan yaradılışından bəri humanitar məsələ bu gün olduğu kimi özündə mədəniyyətlərin, sivilizasiyaların konfessiyaların qarşılıqlı münasibətlərini ehtiva etməkdədir və bu münasibətlərin qovşağında həmişə müəyyən problemlərin olması bir həqiqətdir. Dünyanın müəyyən ölkələrində və məkanlarında həmin münasibətlərə pozitiv və neqativ yanaşmalar müasir dövrümüzdə də davam edir.

Daim güclənən beynəlxalq əməkdaşlıq, geniş bir məkanda inteqrasiya, dövlətlərarası səmərəli tərəfdaşlıq, humanitar əlaqələr və dinlərarası dialoq həm bölgədə sülhün, sabitliyin qorunmasına, həm də sosial-iqtisadi inkişafa lazımi zəmin yaradır. Beləliklə, yerləşdiyi regionda sülhün, əmin-amanlığın qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın qarantıdır. Bu gün Azərbaycan müasir çağırışlara müvafiq pozitiv siyasəti və öz daxili imkanları hesabına güclü dövlət qurubdur. Daim güclənən beynəlxalq əməkdaşlıq bölgədə və dünyada sülhün, sabitliyin qorunmasının qarantı olduğunu da sübut etməkdədir. Bu gün bir çox dövlətlərdə sosial rifahın yaxşılaşdırılması ciddi problemə çevrilib. Bu sahədəki problemlərin həlli isə iqtisadi inkişafdan asılıdır. İqtisadi inkişafın dayanıqlığı və qüdrəti də dövlətlərin qarşılıqlı səmərəli əməkdaşlıqlarından həlledici dərəcədə asılıdır. Bundan başqa, dövlətin iqtisadi gücünün artması üçün bölgələr iqtisadi potensialın aşkara çıxarılması və müvafiq yeni layihələrin hazırlanıb reallaşdırılması həlledici dərəcədə zəruridir. Diqqətəlayiqdir ki, ölkəmizdə bütün layihələr dünya standartlarına uyğun, biri digərini tamamlamaqla həyata keçirilir.

Azərbaycanın yürütdüyü düşünülmüş siyasət, praktikada artıq özünü doğruldub. Göründüyü kimi, nəticədə Azərbaycan regionda qüdrətli dövlət, sabitliyin qarantı, humanizm ideallarının daşıyıcısı, beynəlxalq inteqrasiya prosesində etibarlı tərəfdaş imicini qazanıb. Azərbaycan Prezidenti dövlətin çatmaq istədiyi inkişaf səviyyəsinin və siyasi nüfuzun yaradılan sabitlik nəticəsində əldə edildiyi barədə deyib: "Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr çox pis vəziyyətə, idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur". Beləliklə, Azərbaycan bu gün yerləşdiyi regionun həm lider dövləti, iqtisadi və mədəni mərkəzi, həm də təhlükəsizliyin, sabitliyin qarantı və beynəlxalq əməkdaşlığın fəal təşəbbüsçüsü, təminatçısı və təşkilatçısı mövqeyindədir.

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# Azərbaycan əhalisinin sayı 10 milyon nəfərə çatıb

**Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisə baş verib, əhalinin sayı 10 milyon nəfərə çatıb.**

**2019-cu il aprelin 6-da saat 03:30-da Bakı şəhərində Rauf Həsənovun və Nigar Ocaqovanın (Ağdərə rayonu sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkünlər) ailəsində ölkənin 10 milyonuncu sakini dünyaya gəlib. Doğulan qız uşağının çəkisi 3,6 kiloqram, boyu 52 santimetrdir.**

**AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə xalqımızı, yeni doğulmuş körpənin valideynlərini təbrik ediblər.**

**Sevindirici haldır ki, son illərdə Azərbaycan əhalisinin sayı sürətlə artır. Bu, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir.**

**Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan bir çox sahələrdə olduğu kimi, bu baxımdan da nümunəvi ölkədir. Nəzərə almaq lazımdır ki, dünyanın bir çox ölkələrində bu sahədə vəziyyət heç də ürəkaçan deyil, hətta əhalinin sayında azalma müşahidə olunur. Azərbaycanda isə əhalinin sayı dinamik templə artır.**

**Son vaxtlar, xüsusən bu ilin ilk aylarında Prezident İlham Əliyevin sosial sahədə inqilabi dəyişikliklər kimi qiymətləndirilən və hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatları əhalinin rifah halının daha da yüksəldilməsinə böyük təkan verir. Sürətli inkişaf, sosial rifahın daha da yaxşılaşması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanda əhalinin artım tempinin qorunub saxlanmasına əminlik yaradır.**

**AZƏRTAC**

*Müdafiə naziri:*

# Təlimlər genişmiqyaslı hücum əməliyyatlarının keçirilməsi məqsədinə xidmət etməlidir





**Aprelin 6-da Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə nazirinin müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri, birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə videobağlantı vasitəsilə birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə səfərlərini və Aprel döyüşlərinin nəticələri ilə bağlı səsləndirdiyi fikirləri xatırladan müdafiə naziri ordu qarşısında qoyulan son tapşırıqları iştirakçıların diqqətinə çatdırıb.

Müdafiə naziri döyüş hazırlığı planına uyğun olaraq, xüsusilə gecə vaxtı, döyüş şəraitinə, real əraziyə uyğun keçirilən təlim və məşqlərin intensivliyinin artırılması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin, bölmələrin döyüş qabiliyyətinin yüksəldilməsi, birlik və birləşmələrin silah, döyüş və xüsusi texnikasının yay mövsümündə istismar rejiminə keçidinə hazırlığın təşkili, eləcə də hərbi xidməti başa vurmuş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması və hərbi xidmətə çağırılmış gənc əsgərlərin qəbulunun mütəşəkkil qaydada həyata keçirilməsi ilə bağlı müvafiq vəzifəli şəxslərə tapşırıqlar verib.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin son zamanlar səsləndirdiyi məsuliyyətsiz çıxışlara toxunan general-polkovnik Zakir Həsənov bunun cəbhə xəttində gərginliyin artmasına səbəb olacağını qeyd edib. Nazir plana uyğun olaraq keçirilən bütün təlimlərin genişmiqyaslı hücum əməliyyatlarının aparılması məqsədinə xidmət etdiyini bildirib. Zakir Həsənov bütün səviyyələrdən olan komandir və rəis heyətinə düşmənin fəaliyyətinin daim müşahidə edilməsi, hərəkətinin nəzarətdə saxlanılması, onun törədə biləcəyi istənilən təxribata qətiyyətli cavab vermələri və hər an fəal döyüş əməliyyatlarının başlanmasına hazır olmaları barədə konkret göstərişlər verib.

**AZƏRTAC**

# Azərbaycanda hər bir uşağa bərabər imkanların yaradılması üçün ciddi islahatlar aparılır






**Aprelin 6-da Heydər Əliyev Mərkəzində "CEO" şirkəti (ceo.az), Famtram.az ailə portalı, Edutainment.az təhsil strukturunun təşkilatçılığı ilə fərqli inkişaf özəllikləri olan uşaqlara həsr olunan 1-ci "Fərqli Fərdlər" konqresi keçirilib.**

AZƏRTAC xəbər verir ki, konqresin məqsədi ictimaiyyətin diqqətini fərqli özəllikləri olan uşaqların inkişafına və təlim-tərbiyəsinə yönəldərək valideynlər, mütəxəssislər və pedaqoqlar arasında dialoq qurmaq və inklüziv cəmiyyətin dövlət tərəfindən müəyyənləşdirilmiş inkişaf təmayülünü dəstəkləməkdir.

Konqresdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova uşaq hüquqlarının qorunmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib və görülən işlərdən danışıb: "Ölkə başçısının apardığı uğurlu siyasətin nəticəsi olaraq uşaq hüquqlarının müdafiəsi sahəsində əsaslı nailiyyətlər əldə olunub. Ölkəmizdə uşaq hüquqlarının qorunması üçün güclü qanunvericilik bazası mövcuddur. Azərbaycanda hər bir uşağa bərabər imkanların yaradılması, təhsil, tibb, istirahət və digər xidmətlərin daha əlçatan olması üçün ciddi islahatlar aparılır. Dövlət tərəfindən xüsusi qayğıya ehtiyacı olan və 16 yaşadək əlilliyi olanlara sosial müavinətlər verilir. Artıq 4 ildir ki, autizmli uşaqlara sosial müavinət təyin edilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqların hərtərəfli inkişafı üçün gördüyü işləri xüsusi qeyd etmək lazımdır. Bütün uşaqlar üçün, əsasən də xüsusi qayğıya ehtiyacı olan, ailələrini itirmiş azyaşlılar, münaqişədən zərər çəkmiş bölgələrdə yaşayanların müdafiəsi ilə bağlı müxtəlif layihələr həyata keçirilir. Uşaq hüquqlarının müdafiəsi üzrə ciddi nəzarət və monitorinq mexanizmi də yaradılıb ki, bu da müvafiq dövlət qurumlarının uşaqlara dair məsələləri daha çox diqqətdə saxlamalarına səbəb olub. Həmçinin uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılıb, bütün rayonlarda uşaqlara qarşı zorakılıq faktlarının aşkarlanması üzrə monitorinq qrupları fəaliyyət göstərir".

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaqlara qayğı ilə yanaşıldığını, problemlərinin həlli istiqamətində zəruri addımlar atıldığını bildirib: "Dövlətimiz uşaqların sağlam inkişafı üçün daim müvafiq tədbirlər görür. Bu baxımdan ötən ilin sonlarında "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununu xüsusi vurğulamaq istərdim. Qanuna əsasən, Azərbaycan vətəndaşı olan 18 yaşınadək şəxslər, ərazi poliklinikalarında və qadın məsləhətxanalarında qeydiyyatdan keçmiş hamilələr icbari tibbi sığorta haqqından azaddırlar. Onlar üçün müəyyən edilmiş illik tibbi sığorta haqqı - 120 manat dövlət büdcəsi hesabına ödəniləcək. İcbari tibbi sığortanın tətbiq edildiyi ərazilərdə yaşayanların 27 faizini uşaqlar təşkil edir. Onlar icbari tibbi sığortanın baza zərfinə daxil olan 1829 tibbi xidmətdən ödənişsiz istifadə hüququna malikdirlər. Pilot layihə müddətində agentlik Mingəçevir şəhəri, Ağdaş və Yevlax rayonlarında rəsmi qeydiyyatda olan və anadangəlmə ürək qüsuru ilə doğulan 37 uşağın əməliyyat olunmasını təmin edib".

Təhsil nazirinin müavini İdris İsayev çıxış edərək sağlamlıq imkanları məhdud uşaqların təhsil almasına dair atılan addımlar barədə danışıb: "Dünya əhalisinin 15 faizi əlilliyi olan şəxslərdir. Onlardan 93 milyon nəfəri 14 yaşadək olan uşaqlardır. Azərbaycanda 18 yaşadək uşaqlar arasında sağlamlıq imkanları məhdud olanların sayı təxminən 70 mindir. Həmin şəxslər xüsusi qayğıya ehtiyacı olan təbəqə kimi daim diqqət mərkəzindədir. Onların bütün hüquqları digər şəxslərlə bərabər dövlət tərəfindən təmin edilir. Həmin uşaqların təhsilalma hüquqları da konstitusion hüquqlardan biridir. Ölkəmizdə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" hazırlanıb və ölkə başçısının Sərəncamı ilə təsdiq edilib. İnklüziv təhsil uşaqların fiziki, psixi, intellektual və digər xüsusiyyətlərindən asılı olmayaraq onların öz həmyaşıdları ilə məktəbdə eyni sinifdə təhsilə cəlb edilməsidir. Sağlamlıq imkanları məhdud uşaqlar dərs prosesində digər həmyaşıdları ilə birgə iştirak etdikdə, onların arasında bir-birinə qarşı anlaşma və hörmət hissi inkişaf edir, həmçinin onların həyata və cəmiyyətə fəal inteqrasiyası təmin edilir. Azərbaycanda 15 ümumtəhsil məktəbi, 13 məktəbəqədər təhsil müəssisəsində 268 nəfər əlilliyi olan uşaq inklüziv təsirə cəlb edilib. Bu gün də həmin təhsil müəssisələrində inklüziv təhsil davam edir. Təhsil Nazirliyi UNİCEF-lə birgə "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlayıb, paytaxtın dörd məktəbində 54 nəfər sağlamlıq imkanları məhdud şagird inklüziv təhsilə cəlb olunub, onların xüsusi təhsil ehtiyacları qiymətləndirilib, fərdi təlim proqramları hazırlanıb və müəllimlər təlimlərə cəlb edilib. Eyni zamanda, cari tədris ilində sağlamlıq imkanları məhdud 10 minədək uşaq xüsusi təhsil müəssisələrində dərs alır".

Heydər Əliyev Fondunun Beynəlxalq Əlaqələr Departamentinin rəisi Soltan Məmmədov Fondun sağlamlıq imkanı məhdud uşaqların və gənclərin sağlamlıqlarının mühafizəsinə, təhsil almalarına, sosial problemlərinin həllinə xüsusi diqqət yetirdiyini diqqətə çatdırıb: "Bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən xüsusi qayğıya ehtiyacı olan uşaqların tərbiyəsi, təhsili, inkişafı üçün güclü maddi-texniki baza ilə təmin olunmuş mərkəzlərin yaradılması, həmin mərkəzlərdə yüksək səviyyəli xidmətlərin göstərilməsi üçün müxtəlif layihələr həyata keçirilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və vitse-prezidenti Leyla Əliyeva müntəzəm olaraq xüsusi qayğıya ehtiyacı olan uşaqların təlim-tərbiyə və tibbi xidmət aldığı müəssisələrə baş çəkir və orada uşaqlar üçün yaradılmış şərait, uşaqların tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından tanış olurlar".

Departamentin rəisi təhsil sahəsində aparılan siyasətin icrasına dəstək məqsədilə Heydər Əliyev Fondu tərəfindən bir sıra proqram və layihələrin uğurla icra olunduğunu da qeyd edib.

BP-nin əlaqələr, xarici işlər, strategiya və region üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə vaxtında və düzgün inteqrasiyası və adaptasiyasına yönəlmiş tədbirlərin təqdirəlayiq olduğunu qeyd edib. O, təmsil etdiyi qurumun cəmiyyətin ictimai-sosial həyatında fəal iştirak etdiyini və əsasən təhsil sahəsindəki təşəbbüsləri dəstəklədiyini bildirib: "İnklüziv təhsil də belə təşəbbüslərin tərkib hissəsidir. Son layihələrdən biri "Birgə və Sağlam" İctimai Birliyi ilə həyata keçirdiyimiz "Autizm spektr pozuntusu olan şəxslərə dəstək" layihəsidir. İlk dəfə məhz bu layihə çərçivəsində autizmli şəxslər üçün milli məlumat bazasının yaradılması, o cümlədən həmin bazaya və beynəlxalq standartlara uyğun təlim modullarının hazırlanması və valideynlərin cəlb edilməsi ilə təlimlərin təşkili nəzərdə tutulub. Məqsədə çatmaq üçün layihəyə beynəlxalq ekspertlər də cəlb olunub".

Konqres panel müzakirələrlə davam etdirilib.

Qeyd edək ki, Tədbir "Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Heydər Əliyev Fondu, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin dəstəyi ilə keçirilib.

Konqresin baş tərəfdaşı qismində BP çıxış edib. Tədbir Shokki Mokki brendi, həmçinin "Halliburton", "ACE Group Consultants", "Art Trio", "Credo" və "CTS Translation" şirkətləri tərəfindən dəstəklənib. Təşkilati dəstək "Birgə və Sağlam" İctimai Birliyi tərəfindən göstərilib.

**AZƏRTAC**

# Akademik Ramiz Mehdiyevin dəyərli tədqiqatı xanlıqlar dövrünə obyektiv baxışın formalaşmasına təkan verəcək






**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının müzakirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri açan DİA-nın rektoru, akademik Urxan Ələkbərov akademik Ramiz Mehdiyevin kitabında Azərbaycan tarixinin mühüm mərhələlərindən birini təşkil edən xanlıqlar dövrünün ilk dəfədir siyasi və tarixi aspektdən yeni kontekstdə işıqlandırıldığını qeyd edib.

Rektor Urxan Ələkbərov bildirib ki, akademik Ramiz Mehdiyevin bu kitabı Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən sayılan xanlıqlar dövrünün indiyədək tarixşünaslığımıza məlum olmayan siyasi sənədlərin araşdırılması əsasında konseptual elmi addımdır. Orijinal sənədlərin daxil edildiyi toplu xanlıqlar dövrünün siyasi və tarixi təhlilinə həsr olunan sanballı elmi tədqiqatdır. Akademik Ramiz Mehdiyev xanlıqlar dövrünün indiyədək ciddi elmi mübahisələrin predmeti olan bir sıra mühüm problemlərinə, hadisə və şəxsiyyətlərə faktlar və etibarlı elmi mənbələr, arxiv sənədləri əsasında münasibət bildirir.

Rektor vurğulayıb ki, əsər dövlət idarəçiliyi sahəsində mütəxəssislərin hazırlanması üçün də çox faydalıdır və bu səbəbdən müzakirənin keçirilməsi olduqca əhəmiyyətlidir.

Kitab haqqında ətraflı məlumat verən DİA-nın I prorektoru, professor Əlikram Abdullayev qeyd edib ki, bu kitab tarixi əsər olduğu dərəcədə də sosial-fəlsəfi, politoloji əsər kimi öyrənilə bilər və öyrənilməlidir.

AMEA-nın Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Kərim Şükürov akademik Ramiz Mehdiyevin tədqiqat aparmaqla yanaşı, tədqiqatçılara bir istiqamət göstərdiyini deyib, "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabını Azərbaycan tarixinin fəlsəfəsinin öyrənilməsi baxımından yüksək qiymətləndirib.

DİA-nın siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor Elçin Əhmədov bildirib ki, 22 orijinal sənədin daxil edildiyi dəyərli nəşr xanlıqlar dövrünün siyasi və tarixi araşdırılmasına həsr olunan sanballı tədqiqat işi olmaqla yanaşı, həm tarixçilər, həm də Azərbaycan tarixi ilə məşğul olan mütəxəssislər üçün bir mənbə kimi böyük əhəmiyyət kəsb edir. Kitabda müxtəlif xarici mənbə və ədəbiyyatdan geniş istifadə edilib, məsələn, türkiyəli tarixçi F.Sümər, iranşünas və şərqşünas alimlər M.S.İvanov, K.E.Bosvort, Y.Krımski və başqalarının xanlıqlar dövrünün hadisələri ilə bağlı maraqlı fikirlərinə istinad edilir. "Akademik Ramiz Mehdiyev haqlı olaraq diqqətə çatdırır ki, tarix ondan zəruri dərslər çıxarılmadığı təqdirdə daha amansızlıqla təkrar olunur. Əsərdə xanlıqlar dövrünün hadisələrinin müasir dövrlə əlaqələndirilməsi diqqəti xüsusilə cəlb edir. Akademik bu qənaətə gəlir ki, Azərbaycan xanları vaxtilə birləşib ümumi düşmənə qarşı vahid cəbhədən çıxış edə bilsəydilər, torpaqlarımızın bu qədər asanlıqla və qısa zamanda işğalı da mümkün olmazdı", - deyə Elçin Əhmədov vurğulayıb.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin ictimai elmlər kafedrasının müdiri, tarix elmləri doktoru, professor Camal Mustafayev, DİA-nın tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova, kafedranın professoru Musa Quliyev və başqaları qeyd ediblər ki, akademik Ramiz Mehdiyevin tədqiqatları, dərin məntiqə söykənən fikir və mülahizələri, dəyərli tövsiyələri, həmçinin təqdim etdiyi qiymətli sənədlər xanlıqlar dövrünə aid bir çox yanlış yanaşmaları aradan qaldırmağa imkan yaradacaq. Bununla yanaşı, Azərbaycan tarixşünaslığında, ictimai fikrində məsələyə münasibətdə daha sistemli və obyektiv baxışın formalaşmasına təkan verəcək. Eyni zamanda, akademik dairələrin müraciət edəcəyi və tədris proqramlarına daxil ediləcək önəmli mənbələrdən biri olacaq.

**AZƏRTAC**

# Ötən il Azərbaycanla Çin arasında ticarət dövriyyəsi 1,3 milyard dollardan çox olub



**Keçən il Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsi 1,3 milyard ABŞ dollarından çox olub. Bu isə Çinin Cənubi Qafqaz ölkələri ilə olan ümumi ticarət dövriyyəsinin 43 faizini təşkil edir.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi yanında Xarici Siyasət üzrə Məşvərət Qrupunun üzvü Cou Syaopeyin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Nazir diqqətə çatdırıb ki, Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətləri ölkələrimiz arasında qarşılıqlı əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradır: "2015-ci ildə Prezident İlham Əliyevin Çinə dövlət səfəri əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoyub. Səfər zamanı aparılan danışıqlar, əldə olunan mühüm razılaşmalar, imzalanmış sənədlər, o cümlədən dostluq münasibətlərinin, əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə, "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın genişlənməsində xüsusi əhəmiyyət kəsb edir".

"Bu ilin yanvarında Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" mövzusunda keçirilən sessiyada Prezident İlham Əliyev Azərbaycanın Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvü olduğunu, ölkəmizin Çin hökumətinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəklədiyini bildirib", - deyə nazir əlavə edib.

Ş.Mustafayev qeyd edib ki, Azərbaycan Çinin Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. 2018-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 1,3 milyard ABŞ dollarından çox olub. Bu isə Çinin Cənubi Qafqaz ölkələri ilə olan ümumi ticarət dövriyyəsinin 43 faizini təşkil edir: "Hazırda da Azərbaycanın Çinlə ticarət dövriyyəsində müsbət dinamika müşahidə olunur. Bununla belə, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün potensial böyükdür və bu potensialın reallaşdırılması istiqamətində Azərbaycan tərəfindən ardıcıl tədbirlər görülür. Belə ki, Azərbaycanın Çindəki səfirliyində ticarət nümayəndəsi fəaliyyət göstərir, eləcə də ötən dövrdə Çinin Urumçi, Şanxay və Lucou şəhərlərində Azərbaycanın ticarət və şərab evləri açılıb, Honkonq, Quancou, Urumçi, Şanxay və Pekin şəhərlərinə ixrac missiyaları təşkil edilib. Keçirilmiş biznes forumlar, Azərbaycan şirkətlərinin Çində təşkil olunan beynəlxalq sərgilərdə fəal iştirakı və digər tədbirlər ticarət-iqtisadi əlaqələrin inkişafında əhəmiyyətli rol oynayır. Eyni zamanda, Çin tərəfindən həyata keçirilən idxala dəstək siyasəti Azərbaycanın yüksəkkeyfiyyətli məhsullarının Çin bazarında təklif olunması üçün əlverişli şərait yaradır".

"Azərbaycanda 120-dək Çin kapitallı şirkət qeydiyyata alınıb. Ötən dövr ərzində Azərbaycan tərəfindən Çinə 1,7 milyard dollar, Çindən isə Azərbaycana 800 milyon dollardan çox investisiya yatırılıb. Ölkəmizdə dövlət vəsaiti hesabına icra edilən 600 milyon dollarlıq layihələrdə Çin şirkətləri iştirak edib", - deyə Ş.Mustafayev bildirib.

Maliyyə sahəsində əməkdaşlığın önəmini vurğulayan iqtisadiyyat naziri Azərbaycanın 2016-cı ildə Asiya İnfrastruktur İnvestisiya Bankına üzv olduğunu, Bankın TANAP layihəsinə 600 milyon dollar kredit ayırdığını, Çinin TANAP layihəsinin reallaşmasında rolunu vurğulayıb.

Azərbaycanın siyasi və iqtisadi baxımdan sabit ölkə və etibarlı tərəfdaş olduğunu vurğulayan Ş.Mustafayev ölkəmizdə biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində həyata keçirilən sistemli və ardıcıl islahatlar, qeyri-neft sektorunun inkişafı üçün görülən işlər barədə məlumat verib.

Qarşılıqlı iqtisadi-ticarət əlaqələrinin prioritet istiqamətlərindən birinin nəqliyyat-tranzit sahəsi olduğunu vurğulayan nazir diqqətə çatdırıb ki, Çinin "Bir kəmər, bir yol" strategiyasını dəstəkləyən ilk ölkələrdən olan Azərbaycan, həm də bu təşəbbüsün reallaşdırılmasında fəal iştirakçıdır. Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit və sair sahələrdə əməkdaşlıq üçün geniş imkanlar açır.

Ş.Mustafayev Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun üstünlüklərini, Azərbaycanın marşrutun inkişaf etdirilməsində gördüyü işləri, müasir infrastrukturun yaradıldığını diqqətə çatdırıb. Qeyd edib ki, Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadə edilməsi səmərəli olmaqla yanaşı, ölkələrimiz arasında əməkdaşlığa önəmli töhfə verəcək.

Turizm sahəsində əməkdaşlığın inkişaf etdiyini diqqətə çatdıran nazir bu il martın əvvəlində Azərbaycan Respublikasına çinli turistlərin qrup halında səfərlərinin sadələşdirilməsi haqqında Anlaşma Memorandumunun imzalandığını xatırladıb, Çin vətəndaşlarının "ASAN Viza" sistemindən istifadə etdiyini, çinli turistlərin Azərbaycana marağının artdığını, ötən il 16 minədək çinli turistin Azərbaycana səfər etdiyini qeyd edib.

Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi yanında Xarici Siyasət üzrə Məşvərət Qrupunun üzvü C.Syaopey Məşvərət Qrupu barədə məlumat verərək, Azərbaycanın regionda mühüm mövqeyini nəzərə alaraq, məhz Cənubi Qafqazda əsas ticarət tərəfdaşı Azərbaycanı seçdiklərini vurğulayıb. O, Azərbaycan Prezidentinin Çinlə əməkdaşlığa böyük diqqət göstərməsinin mühüm əhəmiyyət kəsb etdiyini, ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib, müxtəlif sahələrdə qarşılıqlı əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə iqtisadi-ticarət, infrastruktur, maliyyə, investisiya, turizm, humanitar və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirilib, qarşılıqlı əlaqələrin genişləndirilməsi imkanları müzakirə olunub.

**AZƏRTAC**

# Tarixi yazmaq tarixi yaratmaq qədər şərəflidir

**Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı (dörd çağırışda), Bakı Dövlət Universitetinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri, Əməkdar elm xadimi, Dövlət Mükafatı Laureatı akademik Yaqub Mahmudovun qədim dünya və orta əsrlər tarixlərinə həsr etdikləri monumental əsərləri qədim Azərbaycan və qədim dünya tarixlərini əhatə edir.**

"Tarixi Azərbaycan torpaqları ən qədim sivilizasiyaların ayaq açıb yeriməyə başladığı Xəzər-Aralıq dənizi-İran (Fars) körfəzi regionuna daxil idi". Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik ənənələrinə sahib xalqlardandır. Və bu xalqın təşəkkülündə iştirak etmiş qədim etnoslar bu regionda yaranmış qədim mədəni mühitin, o cümlədən Şumer-Babil mədəniyyətinin formalaşmasında, xüsusən də Yaxın və Orta Şərqin hərbi-siyasi həyatında çox mühüm rol oynamışdır. Bu da onu göstərir ki, (arxeoloji qazıntılar zamanı tapılmış zəngin maddi mədəniyyət nümunələri) Azərbaycan xalqı dünyanın ən qədim mədəniyyətini yaradan və beş min illik dövlətçilik ənənələrinə sahibdir...

Yaqub Mahmudovun monumental tarixi əsərləri yalnız Azərbaycan türklərinin keçmişinə deyil, dünya xalqlarının və dünya mədəniyyətinin tarixinə həsr olunmuşdur. Yaqub Mahmudovun yazdığı tarixi əsərlər iftixar ediləcək qədər, daha doğrusu, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün dediyi kimi: "Tarixi yazmaq tarixi yaratmaq qədər şərəflidir". Çünki tarixi yazanlar öz millətinin şanlı keçmişini, qüdrətini, qəhrəmanlığını özünə qaytarır. Yaqub Mahmudovun əsərləri keçmiş tarixlə gələcək arasında bir körpüdür. Tarixçi hansı xalqa, hansı irqə, hansı cəmiyyətə, hansı dünyagörüşünə malik və hansı siyasi platformaya mənsub olursa-olsun Yaqub Mahmudov kimi, tarixi həqiqətin şərəf və qiymətini qorumalı, tarixi saxtalaşdırıb, tarixə yalan və iftiradan uzaq durmalıdır. Bu, hər bir alimin tarix qarşısında şərəf borcudur. Yaqub Mahmudovun Azərbaycan tarixi elminin şərəfi uğruna, yəni Azərbaycan xalqının qəhrəmanlıq tarixini doğru-düzgün işıqlandırmaq, sonralar isə istiqamətləndirmək yollarında mübarizəsi təlatümlü gənclik illərindən başlayır.

Yəni 50-55 il bundan öncə 24 yaşında ikən namizədlik dissertasiyasını müdafiə edib Elmi Şuranın qərarı ilə tarix elmləri doktoru şərəfinə layiq görüləndə gözü götürməyən xəbislər, ürəklərində rəzalət köstəbəklərini gəzdirənlər qiyamət qopardılar. 24 yaşında bir gənc tarix elmləri doktoru olarsa illərcə elm dağlarında külüng çalan alimlərin şərəfi necə olacaq? Dünənin universitet tələbəsi tarix elminin korifeylərinə ağılmı öyrədəcək? və s. kimi cəfəng fikirlərlə gənc Yaqubun yoluna divar hördülər. Yaqub Mahmudov 1989-cu ildə bu divarı doğma Vətəndən uzaqlarda Moskva Dövlət Universitetinin Elmi Şurasında yıxdı və o, tarix elmləri doktoru adı ilə şərəfləndirildi.

Akademik Yaqub Mahmudov əsərlərində yalnız böyük bir alim kimi deyil, həm də bir dövlət xadimi kimi düşünür: əsrlərdən, min illərdən bəri maddi güclər dövlətlər, imperiyalar, ictimai quruluşlar, sivilizasiyalar yaranır, güclənir, dağılır və sonunda tarixin qaranlıqlarında yox olurlar. Bütün varlıq, kainat, əbədiyyət bu dialektik qanuna, yaradılışın bu əbədi gərdişinə məhkumdur və dünyanın sonunadək bu oyun davam edəcəkdir. Bu böyük alim onu da yaxşı bilir ki, xalq üçün, millət üçün, vətən üçün əbədi qalacaq bir şey varsa, yalnız tarix və mədəniyyətdir. Yəni bir xalq qəhrəman bir keçmişə və güclü bir mədəniyyətə sahibdirsə ona diz çökdürmək olmaz. Yəni son nəticə etibarilə milləti tarixdən yox edə bilməzsən.

* * *

Düşmənlər yaxşı bilirlər ki, bir millətin mənəviyyatı çürüməyincə, yəni xalqın müqavimət gücü ölməyincə onu məhv edib tarix səhnəsindən yox etmək qeyri-mümkündür. Bir millət mənəvi pozğunluğa uğramayınca, haqqı və ədaləti, şərəf və qəhrəmanlığı bir millətin ruhundan yox etməyincə, o millətə qalib gəlmək mümkün deyil. Sovet imperiyası 70 il öz xalqının tarixinə biganə alimləri orden və medallarla "şərəfləndirib" saxta tarixlər yaradırdılar.

Çünki millətin qəhrəmanlıq tarixini xalqa unutdurmaq siyasəti bir milləti məhv etmək siyasətidir.

Əslində Qorbaçov-Yazov qaragüruhunun Ulu Öndəri gözdən salmaq üçün yüksək hakimiyyət zirvələrindən endirmələri də məhz bu məqsədə yönəlmişdi. Yəni Qorbaçov hakimiyyətinin bu hərəkəti Azərbaycana mənəvi zərbə vurmaq idi. Azərbaycanı qüdrətindən və dahisindən məhrum etmək idi. Fəlsəfi mənada bu o demək idi ki, ey bədbəxt, biçarə xalq, sən dahilər və böyük mənəvi qəhrəmanlar yaratmaq qüdrətində deyilsən. Yəni sən saysız-hesabsız yeraltı və yerüstü sərvətlərini 70 il Moskva hakimiyyətinə ərməğan etdinsə, hələ 170 il də bizim köləmiz olacaqsan. Amma tarix onu göstərdi ki, Kremlin qaragüruhu Heydər Əliyevi hakimiyyət zirvələrindən endirsələr də onu şərəf və yüksək mənəviyyat zirvələrindən endirə bilmədilər. Elə o yüksək mənəviyyat zirvəsi idi ki, Ulu Öndərimiz yenidən hakimiyyət Olimpinə ucaldı...

Heydər Əliyev Moskvada hakimiyyətdə ikən, haqq dünya yaranandan bəri güclüyə məxsusdur fəlsəfəsini, Pyotr nəvələrinin, yəni Kremldəki kəlçələrin daşlaşmış qafalarından bu fikirləri qoparıb atmaq, üçüncü min illikdə bəşəriyyət "güclü olan haqlıdır" fəlsəfəsilə yox, "haqlı olan güclüdür" fəlsəfəsilə idarə olunmalıdır - deyirdi. Bəşəriyyət kürəsəlləşmə-qloballaşma erasına qədəm qoyacaq və bu erada dünya işğalçılıqla deyil, dövlətlərin qarşılıqlı mənfəətləri əsasında iqtisadi bağlarla, neft kəmərləri və qaz boruları, Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolu ilə bir-birinə calamaq siyasəti ilə idarə olunacaqdır. Bu prosesdə dünya xalqlarının mədəniyyətləri də öz rolunu oynayacaqdır. Dünya yarandan bəri insanlıq bu ümidlə yaşamışdır. Amma bu gün bəşəriyyətin üz qarasıdır ki, dünyanın bəzi dövlətləri ermənilərin rəzil yalanlarına boyun əysin, Qarabağın Azərbaycanın əzəli torpaqları olduğuna kor və sağır qalsın.

Halbuki akademik Yaqub Mahmudov tarixi faktlarla, "Real tarix" və "Rusların işğalı və ermənilərin Azərbaycana köçürülməsi" əsərlərində ermənilərin Zaqafqaziyaya, xüsusilə Azərbaycana, daha dəqiq desək Zəngəzura və Dağlıq Qarabağa yerləşmələrinin tarixçəsini oxucuların gözləri önündə dəqiqliklə sərgiləyir. Ermənilərin Azərbaycana axınları XVIII əsrin birinci rübündən başlayır. 1710-1712-ci illərdə Rusiya imperatoru Birinci Pyotru yoldan çıxarmağa çalışsalar da Türkiyədəki və İrandakı erməniləri Rusiyanın himayəsinə sığınmaları üçün I Pyotra yalvarsalar da bir nəticə vermədi. Düzdür, Qafqaz və Zaqafqaziya I Pyotrun işğalçılıq planlarının tərkibində vardı, amma hələ başı Avropaya qarışmışdı və İsveç ilə ölüm-qalım savaşı aparırdı.

Ermənilərin Peterburq İmperatorluq sarayındakı mövqeləri çariça "Velikaya Yekaterina" adlı ehtiras və şəhvət əsiri bir qadının hakimiyyəti dövründə möhkəmləndi. Çünki zəngin ermənilər göz qamaşdıran zəngin hədiyyələrlə acgöz rus generallarının və onların məşuqələrinin vasitəsilə Peterburq İmperator sarayına yol aça bilmişdilər. Akademik Yaqub Mahmudov qeyd edir ki, Rusiya Zaqafqaziyada mövqelərini möhkəmləndirdikdən sonra ermənilərin Azərbaycana kütləvi axını başladı...

1828-ci ilin 10 fevral tufanları fəryad qoparan soyuq bir qış günündə (Rusiya-İran müharibəsi rusların işğalı ilə bitdikdən sonra) Azərbaycan tarixində görünməmiş bir bəla və tarixi bir faciə baş verdi. Azərbaycan üçün o fəlakətli "Türkmənçay müqaviləsi" imzalandı. (Bu ucsuz-bucaqsız dünyada, bizim Təbrizimizin cənubunda balaca bir Türkmənçay kəndi var.) Qan bir, can bir qardaşlar şimallı-cənublu, o taylı, bu taylı oldular... O bədnam "Türkmənçay müqaviləsi"nin sonuncu - on beşinci maddəsində İran şahı və dövləti İranda yaşayan ermənilərin Rusiyaya köçmələrinə mane olmayacaqdı. Ermənilərin İrandan Azərbaycana güclü axınları o vaxtdan başlandı...

(Qəhrəmanlar qəhrəmanı Azərbaycan türkü Abbas Mirzə o zaman ən müasir silahlarla silahlanmış Rusiya imperiyasının orduları ilə 20 illik mübarizəsindən və məğlubiyyətindən sonra İran şahı Fətəli şah Cənubi Azərbaycanı xilas etmək üçün Şimali Azərbaycanı qurban vermək məcburiyyətində qaldı).

Yəni Rus Qafqaz Ordusunun baş komandanı general Paskeviç Təbrizi və Ərdəbili işğal etdikdən sonra erməniləri şimali Azərbaycana köçürmək üçün polkovnik Lazaryevi (əslən erməni Lazaryan) xüsusi təlimatla Təbrizin hərbi komendantı təyin etdi. Lazaryan Təbrizdə hərbi komendant olduğu 3 ay müddətində Təbrizdən və Marağadan 40 min ermənini Arazın bu tayına köçürərək Qarabağ və Zəngəzur mahallarında yerləşdirdi. Bu köç üçün (yol xərcləri və başqa ehtiyaclar daxil) polkovnik Lazaryan çar birinci Nikolayın xəzinəsindən 14 min çervon qızıl və 800 min gümüş para almışdır...

1828-1829-cu illərdə isə Rusiya-Türkiyə hərbindən sonra türklərin məğlubiyyəti Adrıanapol (Ədirnə) sülh müqaviləsi ilə nəticələndi. Bu müqavilənin də əsas maddələrindən biri Türkiyə-Osmanlı dövləti ermənilərin Rusiya imperiyasına köçlərinə mane olmayacaqdı.

Beləliklə, 100 min erməni Azərbaycanda-İrəvan xanlığında, Qarabağda və digər torpaqlarımızda yerləşdirildi. Sonralar da bu köçlər davam etdi. Ruslar İrəvan xanlığında ermənilər üçün bir vətən də qurdular və adını "Erməni vilayəti" qoydular.

Amma ermənilər Azərbaycana qarşı işğalçılıq siyasətini bu gün də davam etdirirlər.

Əsrlər boyu bütün dünyada xəyanət, rəzalət və yalan simvolu kimi "şöhrət" qazanmış ermənilər özlərindən möhtəşəm bir keçmiş, yalan, ağlasığmaz bir tarix uydurmuşlar. Xəyallarında qəribə bir imperiya, "Dənizdən dənizə kimi (hansı dənizlərdir o?) "böyük Ermənistan" imperiyası yaratmışlar və əlli-altmış ildə bir əllərinə fürsət düşən kimi ortalığı qarışdırıb bu xəyali imperiyanın eşqinə düşürlər. Qonşuların torpaqlarını ələ keçirib, ağlasığmaz cinayətlər törədirlər. Ermənilərin "böyük Ermənistan" xülyaları, yəni başqa ölkələrdən torpaq qoparıb, "böyük Ermənistan" yaratmaq xəstəliyi bu günün, dünənin xəstəliyi deyil, bu uzun əsrlərdən gələn bir mərəzdir. Bu gün Dağlıq Qarabağın və onun ətrafındakı rayonumuzun işğalı da o mərəzlərdəndir deyə vurğulayır Yaqub Mahmudov.

* * *

Azərbaycan Milli ElmlərAkademiyası, özəlliklə Tarix İnstitutu ulu öndərin diqqət mərkəzində idi. Ulu Öndər tarix elmini, onun müqəddəs ideallarını əks etdirən o qüdrətli, ehtişamlı keçmişimizin taleyi mənəvi və siyasi əxlaq normalarından məhrum, hələ də sovet sosializmin zülmətindən və əsarətindən çıxa bilməyən qaragüruhçu alimlərin ümidinə qaldığını görürdü.

Siyasi dühа və böyük dövlət xadiminin mənəvi qüdrəti ilə yoğrulmuş, dahiliyin və mənəvi qəhrəmanlığın, hər türlü haqsızlığa diz çökdürən bir iradənin sahibi olan ulu öndər illər boyu saxtalaşdırılan, saxtalaşdırıldıqca eybəcərləşdirilən Azərbaycan tarix elmini müqəddəs bir əmanət kimi ideal dərəcədə saf, pak və etibarlı əllərdə görmək istəyirdi. Heydər Əliyevin bu müqəddəs əmanətini, yəni Azərbaycan tarix elmini ən şərəfli bir tac kimi başında gəzdirəcək alim akademik Yaqub Mahmudov idi. Çünki Yaqub Mahmudovun dönməz fəaliyyəti Sovetlər dönəmində də, müstəqillik illərində də bu günə qədər hələ də Sovet imperializminin zülmət saçan ideologiyasından və mənəvi köləliyin əsarətindən xilas olmayan və xilas olmağa təşəbbüs göstərməyən alimlərin, tarixə zəhər qatan rus şovenizminin qulbeçələrinin beyinlərində ki-



rəcləşmiş, daşlaşmış sovet düşüncə tərzini söküb atmağa yönəlmişdi.

Sədaqət mənəviyyatın cövhəridir. Və hakimiyyətin taclarını parladan almaza bənzər. Yaqub Mahmudovun təbiətində bir əsilzadəlik vardı və onun əsilzadə ruhu şərəf və sədaqət cövhəri ilə yoğrulmuşdur. Ulu Öndər Yaqubun təbiətindəki bu əsilzadəliyi sezmişdi və hər vəclə Yaquba hiss etdirmədən onu qoruyurdu, onu hələ öz sağlığında "böyük alim, böyük tarixçi" adlandırmışdı. Vətənin tarix elminin gələcəyini müqəddəs bir əmanət kimi ona etibar etmək qərarına gəlmişdi, amma ömür vəfa etmədi. Ulu Öndərin göz bəbəyi oğlu olmaqla bərabər cənab İlham Əliyev həm də ən yaxın silahdaşı idi və onun bütün planlarından xəbərdar idi. Məhz ona görə cənab İlham Əliyev hakimiyyətə gələr-gəlməz 2004-cü ildə Yaqub Mahmudov AMEA Tarix İnstitutunun rəhbəri təyin edildi.

Yaqub Mahmudovun ömrü boyu Azərbaycan tarix elmi uğrunda mübarizəsi Haqq ilə zülmün (zülmün min bir üzü var), Xeyir ilə şərin, Nur ilə zülmətin mübarizəsi idi. Doğrudur, bu mübarizələr Yaqub Mahmudovun qalibiyyəti ilə bitsə də bu qalibiyyət haqqın və nurun zülmət üzərində, xeyirin şər üzərində qələbəsi, ümumilikdə isə Azərbaycan tarix elminin zəfəri idi.

Bu gün də Yaqub müəllim dönə-dönə etiraf edir ki, əgər bu mübarizədə, yəni institutun iri-miqyaslı, nəhəng elmi layihələrinin reallaşması prosesində o zaman şəxsən Ulu Öndərin, sonralar da, yəni bu gün də Prezidentimiz cənab İlham Əliyevin dəstəyi olmasaydı Azərbaycan tarix elmi bu qədər cahanşümul nailiyyətlər əldə edə bilməzdi. Yaqub müəllim bunları qeyd edərkən 2004-cü ildə Azərbaycan tarixi və mədəniyyətinə dair nəşr olunan 85 xəritədən ibarət atlasları və 2018-ci ilə qədər nəşr olunan ingilis, rus, fransız, ispan, alman, italyan, rumın, ərəb, fars və digər dillərdə yüz minlərcə Azərbaycan tarixi və mədəniyyəti haqqında AMEA-nın Tarix İnstitutunun hazırladıqları kitabları nəzərdə tutur.

Yəni AMEA Tarix İnstitutu 15-20 ildə qazandığını Sovet hakimiyyəti 70 ildə yüz milyard tonlarla neftimizi talan etdiklərinə baxmayaraq qazandırmamışdı və qazandıra da bilməzdi, çünki Azərbaycan elmi başqa ideologiyanın əsarətində idi...

**Tarixinə sahib çıxmayan xalq məhvə məhkumdur!**

**Tarixinə sahib çıxan xalq məğlubedilməzdir!**

Yaqub Mahmudovun bütün ömrünün mənası, cövhəri, şərəfi, həyatının mahiyyəti və fəlsəfəsi bu kəlmələrdədir.

Tarixinə sahib çıxan xalq məğlubedilməzdir!

Nə qədər güclü və məğlubedilməz bir ruhdur bu! Gənclik illərindən bəri bu ideal ruhla həyatın burulğanlarına atılan Yaqub Mahmudovun həyat fəlsəfəsinə çevrildi bu ideal fikirlər! Və ona elə mənəvi bir güc verdi ki, ömrü boyu məkrli ruhlar onun qarşısında geri lədi. Bu ruh onu elmin və həyatın keşməkeşlərindən şərəflə keçirtdi. Bu mübarizə bu gün də davam edir.

Çünki bu ideya o qədər güclü və möhtəşəmdir ki, xalqın ən qiymətli sərvəti olan qəhrəmanlıq tarixini yağmalayan, talan edən şəxslərə, güclərə, hakimiyyətlərə qarşı mübarizədə sarsılmaz bir ruh verir. Zatən Yaqubun təbiətində hər cür haqsızlığı dizə gətirəcək qeyri-adi bir iradənin və daş ürəkləri belə riqqətə gətirəcək zərifliyin və alicənablığın qərar tutması ağlasığmazdır. Amma bu böylədir. Allah Yaqubu böylə yaratmışdır. Bəlkə Yaqubun təbiətinin dərinliklərində gəzən qəhrəmanlar qəhrəmanı əziz atası Qara Mikayılın ruhudur bu?!..

**Tarixinə sahib çıxmayan Xalq məhvə məhkumdur?** Akademik Yaqub Mahmudov bununla nə demək istəyir? Bu nə deməkdir? Bu o deməkdir ki, şanlı bir tarixi olmayan bir xalqın dərdlərdən, təhqirlərdən, əzablardan başqa nəyi ola bilər ki? Sanki Azərbaycanın gələcək idarəçilərinə hayqıraraq deyir böyük alim: Siz də ömrünüzün ən xoşbəxt zirvələrində qəhrəmanlıq tarixinizi unutmayın. Ona sahib çıxın! Çünki hər bir xalq, öz vətəninin şanlı tarixi ilə öyünür, iftixar hissi keçirir və öz qəhrəmanlıq tarixindən güc alır. Ey xalqın böyükləri! Tarixinizə sahib çıxın! Qəhrəmanlıq keçmişinizi unutmayın! O zaman... yalnız o zaman bu əbədi göylərin altında var olacaq və qəhrəmanlıq tarixinə sahib çıxan xalq məğlubedilməz olacaqdır.

**Tarixinə sahib çıxmayan xalq nə deməkdir?** Düşmən mərhəmətinə sığınmaq deməkdir! Vətəni öz əlinlə düşmənə təslim etmək, xalqı qəsbkarların qucağına atmaq deməkdir. Xalqı qəsbkar önündə tərk-silah etmək deməkdir. Qəsbkarlar isə yalnız özlərinəməxsus alçaq yollarla, min bir türlü vasitələrlə xalqın mənəviyyatını məhv edəcəklər. Xalqın tanrı kimi güvəndikləri dahilərini gözdən salmaq siyasəti yürüdəcək, dostam, qardaşam deyə bir yığın boş çürük, yalan fəlsəfələrlə xalqın varını-yoxunu yağmalayacaq, böyük azadlıq fikirlərini məhv edib kölələr sürüsünə çevirəcəklər. Sonra şarlatan alimlər sürüsü yaradıb, yaxalarını ordenlərlə süsləyib, onların əlləriylə xalqın tarixini, qəhrəmanlıq keçmişini alt-üst edəcək, xalqın keçmiş qüdrət və əzəmətini, yəni dahilərini, qəhrəmanlarını tarixdən siləcək... Bu xalq bu dühaları, bu qəhrəmanları yarada bilməz deyə, yalanla, rəzalətlə dolu saxta bir tarix uyduracaqlar. Manqurt sürüləri yaradacaqlar...

**Tarixinə sahib çıxan xalq nə deməkdir?** - davam edir böyük alimimiz - Bu o deməkdir ki, fəlakət tanrısı bütün dəhşətlərini bir xalqın üzərinə yağdırsa da tarixinə sahib çıxacaqlar nəyin bahasına olursa-olsun... Ya hürriyyətə qovuşacaq, ya da tarixin hüzurundan şərəflə çəkilib gedəcəkdir. Tarixinə sahib çıxan xalq əsarətdə yaşamaq rüsvayçılığını özünə yedirməz, çünki məğlubedilməzdir. Çünki:

***Nə qədər zülmətə boğulsa da bu cahan,***
***Ən parlaq günəş doğur ən qatı qaranlıqdan!***
***Ölüm dedikləri yox olmaq deyil,***
***Ölüm var ən şanlı qalibiyyətdir.***
***Bu Vətən uğrunda can verənlərin***
***Son yolu ölümsüz əbədiyyətdir!***

Millətin böyüklüyünün göstəricilərindən biri dövlət yaratmaqdır. Lakin Azərbaycanın dövlət qurmaq üçün hələ yetişmədiyi fikrini yayanlar vardı o illərdə. Şanlı tariximizi dandılar. Dövlətçiliyimizə mənəvi qəsd etdilər. Amma onların qarşısına çıxan tarixçi akademik (Sovet İttifaqı Qəhrəmanı) Ziya Bünyadovlar da vardır, Yaqub Mahmudovlar da... Onlar sübut etdilər ki, əsrlər boyu Dünya Tarixinin fəxri olan Şumerlərdən, Ulu anamız Tomrisin hökmdarlığından və Midiya dövründən bəri Azərbaycan dövlətlər və mədəniyyətlər yaradan bir millətdir. Azərbaycan tarix boyu dövlətləri, qəhrəmanları, dahiləri ilə dünya tarixinin şanına şan qatmışdır.

* * *

İki min beş yüz il bundan qabaq Azərbaycan Türklərinin ulu anası yunanca Tomris (türkcəsi Dəmirüz) qədim dünyanın böyük dövlətlərini özündə birləşdirən Əhəməni İran imperatoruna bir zərbə ilə diz çökdürmədimi? Tarixdə sonralar Azərbaycan adlanacaq bir məmləkətin ulduzu parlamadımı? Qədim dünyanın xalqları və dövlətləri heyrət, dəhşət içində bu məğrur və əzəmətli türkün fəlakət uçurumlarından qalxdığını görürdü. Qədim dünya görürdü ki, Azərbaycan türkü cahangirlərə diz çökdürmək əzmindədir.

Makedoniyalı İsgəndər dövründə də Azərbaycan Atropatena adı ilə öz müstəqilliyini qoruya bilmişdir.

Səkkizinci əsrdə ərəb xilafəti dövründə ərəb səltənəti adlanan bir imperiyanın beli Azərbaycanın qəhrəmanı möhtəşəm Babəkin qılıncı ilə qırıldı. Ərəb İmperiyası qırılmış beli ilə ömrünü iki yüz il uzatdısa, keçmiş şan-şöhrət və əzəməti XII əsrdə tarixə qarışdı. Şərqdə yenidən Azərbaycan adlı möhtəşəm Atabəylər dövləti yarandı.

Atabəy Məhəmməd Cahan Pəhləvan qəhrəmanlığı, ağlı və qılıncı ilə Azərbaycana qan qusduran düşmənlərə göz dağı çəkdirdi. Bağdada baş əydirdi. İrana diz çökdürdü. O zaman, yəni Azərbaycan Atabəylər dövləti Azərbaycanın ərəb zülmünə divan tutduğu zamandı! Zaman düşmənlərin Azərbaycanın önündə diz çökdüyü, baş əydiyi zamandı. Sonralar XIV-XV əsrlərdə Qaraqoyunlar və Ağqoyunlar dövlətləri... XV əsrin sonu və XVI əsrin başlarında Azərbaycanın dahi oğlu Şah İsmayıl Xətainin Səfəvilər İmperiyası...

On səkkizinci yüz ilin sonu XIX əsrin əvvəli (1804-1805-ci illər) Azərbaycanın Gəncə xanlığı başda misli-bərabəri olmayan qəhrəman Cavad xanın ucsuz-bucaqsız Rusiya Romanovlar imperiyasına meydan oxuması və Hürriyyət uğruna qəhrəmanlıqla həlak olması milli tariximizin şanlı səhifələridir...

Bir alimin (belələrinə alim demək mümkünsə?) zehni nə qədər kor, vicdanı nə qədər qaranlıq olmalıdır ki, Azərbaycan tarixinin bu qəhrəmanlıq səhifələrini görməsin... Azərbaycan xalqını dövlət yarada bilmək qüdrəti barədə ələmlik etsin..

O zaman Yaqub Mahmudovun fəaliyyətindən bəzi xarici dövlətlər də narahatçılıq duymağa başlamışdılar.

Bir gün İran İslam dövlətinin Azərbaycan Respublikasındakı səfiri ağayi Əhəd Qəzai Azərbaycan Prezidenti Heydər Əliyevin hüzuruna çıxmış, Yaqub Mahmudovdan giley-güzar etmişdir: Möhtərəm aliminiz ağayi Yaqub Mahmudovun fəaliyyəti iki dost dövlət arasında təfriqə salmaq xarakteri daşımaqdadır - demiş ağayi Qəzai... İran Prezidenti ağayi Rəfsancani mənə bu xüsusiyyəti dövləti şahanələrinizə çatdırmağı buyurmuşdur. Böylə fəaliyyətlər İran İslam dövləti tərəfindən qəbuledilməzdir.

Heydər Əliyev təmkinini pozmadan üzündəki müdrik, işıqlı zərif təbəssümü ilə:

- Ağayi Yaqub Mahmudov demiş Ulu Öndər - Azərbaycanın böyük alimlərindəndir, tarixçilərindəndir. Sizin də dövlətiniz İslam dövlətidir. Ağayi Qəzai bilməmiş deyil ki, Ulu İslam Peyğəmbərimiz hədisi-şəriflərin birində böylə buyurmuşdur: "Yüksək səmalarda Allahu-Təala həzrətlərinin möhtəşəm xəzinələri vardır. Bu xəzinələrin açarları alimlərin dillərində və ürəklərindədir". Müstəqil Azərbaycan Dövləti Yaqub Mahmudovun tarixin həqiqətlərinə sədaqətini bu meyyar ilə ölçür"...

Azərbaycan Prezidenti demək istəyirdi ki, dünyada heç bir güc Yaqub Mahmudovun vicdanını susduracaq mahiyyətində deyildir. Çünki Yaqub Mahmudov üçün tarixi saxtalaşdırmaq ən böyük mənəvi cinayətdir. Dahi türk şairi və filosof Cəlaləddin Rumi Mövlana buyurmuşdur: "Ya olduğun kimi görün, ya göründüyü kimi ol!" Bu hikmət və şərəf alimimiz Yaqub Mahmudova məxsusdur...

* * *

Yaqub Mahmudovun əsərlərini vərəqlədikcə gözümüz önündə ehtişamlı mənzərələr açılır. Yəni Qədim türklər (Qədim azərbaycanlılar) tarixi yazmaqla deyil, tarixi yaratmaqla məşğul olduqlarından onların tarixin səhifələrindən aşıbdaşan qəhrəmanlıqları keçmiş zamanların zülmətlərində yox olmaq təhlükəsinə məruz qalmışdı. Lakin bu qəhrəmanlıq və mədəniyyət unudulmaq təhlükəsinə məruz qalsa da ulu babalarımızın əzəmət və ehtişamı o qədər böyük idi ki, bu əzəmət və ehtişamın külləri sovrulmamış, dünya xalqlarının tarixində dərin izlər buraxmışdır.

Son 100 ildə dünya alimlərinin apardığı elmi arxeoloji qazıntılarla qədim Azərbaycan türklərinin qəhrəmanlıq və şərəf tarixlərini dünya xalqlarına bəyan etməyə məcbur oldular. Qədim Azərbaycanlıların bəşəriyyət tarixində yeri və əzəməti o qədər böyükdür ki, türkçülüyün düşmənləri belə bu tarixi həqiqəti etiraf etmək məcburiyyətində qaldılar.

Yaqub Mahmudov qədim Azərbaycanın beş min əsrlik tarixinin zülmətində dolaşaraq minillikləri, əsrləri, zamanları, məkanları, Qədim Şumer mədəniyyətinin əzəmət və ehtişamını gözlər önünə sərməkdədir.

Dünya tarixində qədim türklərin tarixi (qurduqları on altı imperiya) çox ciddi bir sual doğururdu. Qədim türklər hardan meydana gəldilər? Necə əlçatmaz yüksəklərə qalxdılar və öz adlarını dünya xalqları üçün bir qəhrəmanlıq və şərəf simvolu kimi buraxaraq tarixin hüzurundan çəkilib getdilər?

Yəni o qədim zamanlarda qədim türklərin başqa xalqlara nisbətən sayca son dərəcə az olmalarına baxmayaraq dünya xalqları üzərində yüksəlməsi, hegemon olması və bəşəriyyət tarixində dərin izlər buraxması zaman-zaman bir çox məşhur tarixçiləri düşündürmüş, bəzilərini yanlış yollara və təsəvvürlərə sövq etmişdir (siyasətdən uzaq və irqçilik bəlasına mübtəla olmayan dünya alimləri xaric).

Avropa və dünya miqyasında Arxeologiya və Etnoqrafiya elmi inkişaf etdikcə, həm bu elmi problemlərin araşdırılmasına yardımçı oldular, həm də akademik Yaqub Mahmudovun geniş, əhatəli, ensiklopedik biliyi sayəsində türklərin qurduqları imperiyaların (on altı imperiya) ehtişamını gözlər önünə sərdi.

Türklüyün mənşəyini, yaranmasının, formalaşmasının, inkişaf mərhələlərini araşdırarkən akademik Yaqub Mahmudov tarix və türk dili üçün Orxon-Yenisey daş kitabələrinin misilsizliyini qeyd edir və bu kitabələr üzərində xüsusi araşdırmalar aparır. Onun əsərlərində Azərbaycan xalqının doğuluşu, soykökü həm miladdan çox-çox uzaq dövrləri əhatə edən tarixi, həm də miladdan sonrakı əsrlər nəzərdən keçirilir, türklərin ulu əcdadları Şumerlərdən başlayaraq böyük alman tarixçisi və filosofu Kramerin "Tarix Şumerlərdən başlayır!" məşhur fikri dominantlıq səviyyəsinə yüksəlir. Azərbaycanın İran, Böyük İsgəndər, Ərəb, Monqol və rus imperiyalarına qədər ucsuz-bucaqsız tarixlər, mədəniyyətlər, ictimai quruluşlar, bunlarla bərabər Azərbaycan türklərinin təşəkkülü, inkişaf yolları və s. ilk qaynaqlara istinadən araşdırılır. O uzaq, xəyal almaz dərəcədə uzaq tarixlər həm türk xalqları ilə ortaq, həm də bilavasitə Azərbaycan tarixi təhlil edilir. Özəlliklə, elmi-ədəbi abidələrin (özəlliklə Kitabi-Dədə Qorqud) tədqiqi əsasında elmi nəticələr çıxarılır. Bu monumental əsərlərdə Azərbaycan türkləri və dövlətlərinin başlanğıcının təsviri son dərəcə önəm daşıyır. Xüsusən, Azərbaycan xalqının təşəkkülü onun diliylə vəhdətə götürülməsi xalqın tarixi mərhələləri dilin inkişaf tarixi ilə həmahəng səslənməsi elmi meyarlara əsaslanır ki, bu da akademik Yaqub Mahmudovun əsərlərinin elmi monumentallığını daha da gücləndirir.

* * *

Azərbaycan siyasi təlatümlərlə çağlayan o qaranlıq illərdə (1980-1993-cü illər) bir çox Azərbaycan ziyalıları və alimləri öz siyasi platformalarını müəyyən edə bilmədilər. Yaqub Mahmudov isə dövlətimiz siyasi fırtınalarla çalxalanan bir zamanda belə öz şərəfli mövqeyindən, yəni tarixinə və dövlətinə sədaqət yolundan ayrılmadı. Siyasətin qaranlıq labirintlərindən üzüağ çıxdı. Ulu Öndərin də insanlarda ən çox təqdir etdiyi bu keyfiyyət idi. Sədaqət əxlaqın və vicdanın tacıdır deyirdi - Ulu Öndər. Çünki Yaqub Mahmudov keşməkeşlərlə dolu həyatında ən doğru və ən qiymətli möcüzəni "kəşf" etmişdi. İnsan oğlu üçün dünyada öz vicdanına sədaqətdən yüksək heç bir güc yoxdur. Vicdan və şərəf ləkələnsə sinəni göylərin bütün ulduzları ilə süsləsələr də kirlənmiş vicdanını parlada bilməyəcəksən. Akademik Yaqub Mahmudov üçün haqq və şərəf yolları vətənə, onu qəhrəmanlıq tarixinə sonsuz sevgidən və iftixarından keçir. Yaqub müəllim üçün elmin zirvələrinə qalxmaq mənəvi qəhrəmanlıq deyil, bu mənəvi qəhrəmanlığın zirvələrində mətanətlə dura bilməkdir.

O həyatında çox haqsızlıqlara uğradı və ürəyi ağrılardan partlamaq dərəcəsinə gələndə belə vətən tarixinin şərəf bayrağını yüksəklərə qaldırdı. Bu gün Yaqub Mahmudovun qismətinə düşən şərəf və mənəvi qalibiyyət çələngləri göz qamaşdıran bir şərəflə parlamaqdadır. (Bu fikir Tarix İnstitutunun nailiyyətləri ilə ölçülür).

Çünki, ideal ruhlu akademik Yaqub Mahmudov ürəyini beş min illik tarixə şərəf verən ulu əcdadlarımızın mənəvi xəzinəsi olan tariximizə gah çox-çox uzaq, ağıla-xəyala gəlməz dərəcədə uzaq zamanların, gah da bizə yaxın əsrlərin qaranlıqlarına məşəl tutaraq həm Azərbaycan tarix elminə misilsiz əsərlər bəxş etmiş, həm də ulu, müdrik və qəhrəman əcdadlarımızın ölməz ruhu qarşısında bir tarixçi alim olaraq şərəf borcunu yerinə yetirmişdir.

Yazımızın əvvəlində Türkiyə Cümhuriyyəti Dövlətinin qurucusu Böyük Mustafa Kamal Atatürkün şahanə fikri ilə başlamışdıq: "Tarixi yazmaq tarixi yaratmaq qədər şərəflidir"...

Nədən? - Sordular Atatürkdən.



Cavab: - Çünki tarixi yazan öz millətinə qəhrəmanlıq tarixini yenidən yaşadır!

Tarixi yaradan üçün də, tarixi yazan üçün də bundan böyük şərəf ola bilərmi?!

**Oqtay ALTUNBAY,**
**yazıçı, jurnalist.**

# Qəhrəmanlar unudulmur

**2016-cı il Aprel döyüşləri göstərdi ki, biz işğal altında olan bütün torpaqlarımızı azad edəcəyik. Bu döyüşlər zamanı Azərbaycan Ordusu düşmənin daim öyündüyü və keçilməz adlandırdığı müdafiə xəttini bir həmlə ilə yararaq, qarşıya qoyulan tapşırığı uğurla yerinə yetirdi, işğal altında olan torpaqlarımızın bir hissəsini azad etdi. Əminliklə bildiririk ki, ordumuzun gücü, Ali Baş Komandanımızın qətiyyəti və xalqımızın iradəsi ilə işğal altındakı bütün torpaqlarımız azad ediləcək və biz doğma yurdumuza qayıdacağıq.**



Ağdam rayonunda 2016-cı ilin Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuş polkovnik-leytenant Raquf Orucovun və Sərvan Mehralıyevin xatirəsinə həsr olunmuş tədbirdə bu qəti inam dönə-dönə səslənib. Rayon rəhbərliyi, ictimaiyyət nümayəndələri, keçmiş döyüşçülər və məktəblilər əvvəlcə şəhid Sərvan Mehralıyevin məzarını ziyarət edib, ruhuna dualar oxuyublar.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov şəhidlik zirvəsinin müqəddəsliyindən danışıb, ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş oğulların xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğunu diqqətə çatdırıb. Bildirib ki, şəhidlərin müqəddəs əməllərini layiqincə qiymətləndirmək və bunu gələcək nəsillərə çatdırmaq bizim ümdə vəzifəmizdir.

Sonra Bənövşələr qəsəbə tam orta məktəbində Aprel döyüşlərində böyük şücaətlər göstərmiş şəhid polkovnik-leytenant Raquf Orucovun xatirəsinə həsr olunmuş "Səni unutmadıq komandir, sizi unutmadıq şəhidlər" adlı tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə şəhidlərə həsr edilmiş guşə ilə tanış olublar. Azərbaycan torpaqlarının bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Məktəbin direktoru Tünzalə Vəlimәmmədova çıxış edərək, Raquf Orucovun mənalı həyat və qəhrəmanlıqla dolu döyüş yolundan danışıb. Bildirib ki, Raquf İbrahim oğlu Orucov 1972-ci ildə Ağdam rayonunun Cinli kəndində anadan olub. İbtidai təhsilini doğma kəndində, orta təhsilini isə Xaçındərbənd kənd tam orta məktəbində alıb. 1990-cı ildə sovet qoşunlarında xidmət edən Raquf Orucov bir müddət sonra ordudan ayrılıb və çətin günlərdə Azərbaycan Ordusunun sıralarına qoşulub.

Qazançı, Fərrux, Naxçıvani, Aranzəmin, Dəhraz, Ağbulaq kəndlərinin erməni işğalçılarından azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. 1993-cü il iyunun 12-də ermənilər Raqufun doğulduğu Cinli kəndini artilleriya atəşinə tutaraq işğal ediblər. Raqufun anası Raya xanım da qəlpə yarasından həlak olub. Bu hadisə Raquf Orucovun düşmənə nifrətini daha da artırıb. Bakı Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbinə qəbul olan R.Orucov 1996-cı ildə zabit kimi Azərbaycan Ordusunda xidmətə başlayıb. 2016-cı il aprelin əvvəllərində düşmənin cəbhədə yaratdığı təxribatların qarşısının alınmasında, Talış yüksəkliyinin azad edilməsində fədakarlıq göstərərək şəhid olub. Hələ sağlığında ikən onu əfsanəvi qəhrəman, "Murov qartalı" hesab edirdilər. Kəşfiyyatçı zabit şəhid olduğu günədək bir çox mükafatlara, ölümündən sonra isə "İgidliyə görə" medalına layiq görülüb.

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyi rayon şöbəsinin sədri Baxşeyiş Hətəmli, "Qarabağ qaziləri" İctimai Birliyinin Ağdam rayon şöbəsinin sədri Şamil Əbilov və Raquf Orucovun müəllimləri çıxış edərək, cəsur döyüşçünün mübariz və qorxmaz keyfiyyətləri barədə danışıblar.

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov 2016-cı ilin Aprel döyüşlərinin əhəmiyyətindən, igidlərimizin qanı bahasına azad edilən Vətən torpaqlarının müqəddəsliyindən danışaraq qeyd edib ki, Raquf Orucov Ağdam rayonunun kiçik bir kəndində doğulsa da, Vətən sevgisi, fədakarlığı və şəhadəti ilə sevgimizi qazandı. Raquf Orucov və digər şəhidlər öz fədakarlıqları ilə bir daha göstərdilər ki, xalqımız torpaqlarımızın işğalı ilə heç zaman barışmayacaq.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# UNEC-də "Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən" devizi altında hərbi-vətənpərvərlik bayramı keçirilib





Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "Aprel döyüşlərinin zəfər bayraqlarına düzlən" devizi altında hərbi-vətənpərvərlik bayramı keçirilib.

Müdafiə Nazirliyinin və UNEC-in birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Aprel döyüşlərində, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarında və keçən ilin mayında Naxçıvan Muxtar Respublikasında uğurlu əks-hücum nəticəsində bir çox strateji yüksəkliklərin ələ keçirilərək min hektarlarla ərazilərin nəzarətə götürülməsində müstəsna xidmətləri olmuş hərbi hissələrin Azadlıq meydanında keçirilən hərbi paradlarda nümayiş etdirilən döyüş bayraqları meydana gətirilib.

Bayram tədbirində UNEC-in rəhbərliyi və müəllim-tələbə heyəti ilə yanaşı, millət vəkilləri, Müdafiə Nazirliyinin nümayəndələri, generallar, ictimaiyyət nümayəndələri, Aprel zəfərinin qazanılmasında xüsusi xidmətləri olan hərbi qulluqçular, zabitlər, eləcə də xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin kursantları, UNEC-in aprel şədilərinin valideynləri iştirak ediblər.

Tədbirdən öncə iştirakçılar Ulu Öndər Heydər Əliyevin UNEC-də ucaldılan büstünü və şəhidlərin xatirəsinə ucaldılan Memorial-Xatirə Kompleksini ziyarət edərək, onların əziz xatirələrini ehtiramla yad edərək, önünə əklil və gül dəstələri düzüblər.

UNEC-in rektoru, professor Ədalət Muradov ölkənin hər yerində Aprel zəfərinin üçüncü ildönümünün böyük təntənə ilə qeyd edildiyinə diqqət çəkərək, xalq və ordumuzun möhtərəm Prezident cənab İlham Əliyevin ətrafında bir bayraq, bir amal uğrunda daha sıx birləşdiklərini bildirib. Rektor Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, müasir standartlara cavab verən peşəkar orduya çevrilməsi istiqamətində görülən mühüm işlərdən söz açaraq, bütün bu uğurların arxasında dövlət başçısının gərgin, məqsədyönlü, daxili və xarici siyasətinin dayandığını vurğulayıb. Üç il öncə, aprel ayında Azərbaycan xalqının bir nəfər kimi ayağa qalxdığını xatırladan rektor, müxtəlif istiqamətlərdə təxribatlar törədərək, dinc əhalini intensiv atəşə tutan məkrli və hiyləgər erməni düşmənlərinin mövqelərinin Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə bir neçə saat ərzində darmadağın edildiyini söyləyib. Həmin döyüşlərdə UNEC-in 2 məzunu - Tural Dadaşov və Mahir Mirzəyevin də şəhidlik zirvəsinə ucaldığını deyən Ə.Muradov, şəhidlərin öz qanları ilə Aprel zəfəri salnaməsinə UNEC-in imzasını yazdıqlarını vurğulayıb. Rektor UNEC-in çoxminlik müəllim və tələbə heyətinin Azərbaycan uğrunda Ali Baş Komandanın hər bir çağırışına hazır olduğunu bildirərək, işğal altında olan torpaqlarımızın tezliklə azad olunacağına və Azərbaycanın ərazi bütövlüyünün təmin ediləcəyinə əminliyini ifadə edib.

Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini, general-mayor Rasim Əliyev Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Azərbaycan əsgərinin 2016-cı il aprelin əvvəllərində əks-hücum əməliyyatı ilə düşmənin layiqli dərsini verdiyini, ölkənin işğal altında olan 2000 hektardan çox ərazisinin azad edildiyini bildirib. Müdrik və qətiyyətli Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Aprel zəfərini Azərbaycan dövlətinin və ordusunun şanlı qələbəsi adlandıran general-mayor, bu qələbənin ordumuzun gücünü, dövlətimizin qüdrətini və xalqımızın həmrəyliyini göstərdiyini qeyd edib.

Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin xüsusi ssenarisi əsasında qurulan tədbirdə UNEC-in aprel şəhidləri Mahir Mirzəyev və Tural Dadaşovla bağlı səhnə iştirakçılara və şəhidlərin valideynlərinə duyğusal anlar yaşadıb. Bayram tədbiri Azərbaycan incəsənət ustalarının, Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin mahnı və rəqs ansamblının konserti ilə davam edib.

**"Respublika".**

# APREL DÖYÜŞLƏRİNİN ÜÇÜNCÜ İLDÖNÜMÜ

**Aprelin 4-də Gəncə Dövlət Universitetində (GDU) Aprel döyüşlərinin üçüncü ildönümünə həsr olunmuş tədbir keçirilib.**



Tədbirin əvvəlində Dövlət Himni səsləndirilib, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Mərasimi açan GDU-nun humanitar işlər üzrə prorektoru Gülsüm Fətəliyeva aprel ayında baş vermiş hadisələri yaxın tariximizin həm kədərli, həm də qürurverici səhifəsi adlandırıb. O bildirib ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə qəhrəman əsgər və zabitlərimiz erməni təxribatına uğurlu əks-hücum əməliyyatı keçirib, düşmənə sarsıdıcı zərbələr vurublar. Gülsüm Fətəliyeva deyib: "Aprel döyüşlərindən sonra Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edildi. Bizim əsgərlərimiz, zabitlərimiz sübut etdilər ki, Vətən uğrunda, torpaq uğrunda ölümə getməyə hər an hazırdırlar. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu Ermənistanın uzun illər öz ordusu haqqında uydurduğu miflərin yalan olduğunu bir daha sübut etdi".

Gülsüm Fətəliyeva Azərbaycan əsgəri üçün yaradılan şəraiti böyük qürur hissi ilə qeyd edərək bildirib ki, ordumuzun ən müasir, yüksək dağıdıcı qüvvəyə və dəqiqliyə malik olan silahlarla, hərbi texnika ilə təmin edilməsi ölkə Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi dəstəyin bariz nümunəsidir. G.Fətəliyeva bu gün ölkəmizdə hökm sürən sabitliyin, əmin-amanlığın əvəzsiz bir nemət olduğunu vurğulayıb.

O, gənclərə yad ideologiyalara, yabançı düşüncələrə uymamağı bir daha tövsiyyə edib.

Tədbirdə çıxış edənlər Aprel döyüşləri zamanı Azərbaycan ordusunun düşmənə sarsıdıcı zərbələr endirməsindən, qəhrəman oğullarımızın döyüşlərdə göstərdiyi şücaətdən danışıblar. Birmənalı qeyd edilib ki, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyəti vardır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinə kursant qəbulu ilə bağlı imtahan keçirilib

**Aprelin 6-da Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbinin V sinfinə 2019-2020-ci tədris ili üçün kursant qəbulu ilə bağlı şagirdlərin imtahanı keçirilib.**



AZƏRTAC xəbər verir ki, "Sərhədçi" İdman Olimpiya Mərkəzində keçirilən imtahanda 48 yer üçün 1227 uşaq imtahan verib. Bu da məktəblilərimizdə hərb sənətinə və sərhədçi peşəsinə marağın artmasından xəbər verir.

Tam şəffaf və aşkarlıq şəraitində keçən imtahan Azərbaycan dili və riyaziyyat fənləri üzrə test üsulu ilə aparılır.

İmtahanın gedişini Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və şagirdlərin valideynləri də izləyiblər.

Dövlət Sərhəd Xidmətinin Aparat rəhbəri, general-mayor Elçin İbrahimov jurnalistlərə müsahibəsində bildirib ki, Xüsusi Məktəbdə təhsil almaq üçün 1227 nəfər müraciət edib. Məktəbdə kursant yerinin sayı 48-dir. Göründüyü kimi, konkurs bir yer üçün 26 nəfərdir. Bu rəqəmlər DSX-nin Xüsusi Məktəbinin nüfuzunun artmasının göstəricisidir. Bu nüfuzun arxasında Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin 2011-ci ilin oktyabrında Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edildikdən, zəruri tədris bazası ilə təchiz olunduqdan sonra DSX-nin balansına verilməsi və həmin il oktyabrın 18-də açılış mərasimində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirak etməsi olub.



E.İbrahimov deyib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2014-cü il 22 may tarixli Fərmanı ilə məktəbə xüsusi təyinatlı təhsil müəssisəsi statusu verilib. "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin Nizamnaməsi"nə əsasən, Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin vəzifəsi - kursantların maraq və potensial imkanları, fərdi xüsusiyyətləri nəzərə alınmaqla, onların zəruri biliklərə və həyat bacarıqlarına yiyələnmələrini, milli-mənəvi dəyərlərə malik, sağlam, vətənpərvər, müasir dünya görüşlü şəxsiyyət kimi formalaşmalarına, Dövlət Sərhəd Xidmətinin Akademiyası üçün hazırlanmalarını təmin etməkdir. Bu məktəbin yaranması, 2007-ci ildə DSX Akademiyasının təsis edilməsi və fəaliyyətə başlaması nəticəsində Dövlət Sərhəd Xidmətində mükəmməl hərbi təhsil sistemi formalaşıb. Kursantlar Xüsusi Məktəbdə yeddi illik təhsil aldıqdan sonra DSX Akademiyasında dörd il təhsil alırlar. Bundan sonra onlar leytenant hərbi rütbəsi alaraq dövlət sərhədində xidməti-döyüş fəaliyyətinə başlayırlar. Bir müddətdən sonra onlar növbəti təhsil pilləsinə - akademik kurslara cəlb olunur və ikiillik təhsildən sonra DSX-nin peşəkar zabit korpusunun tərkib hissəsi kimi öz fəaliyyətlərini davam etdirirlər.

İmtahanda 12 yaşadək uşaqların iştirak etdiklərini deyən general-mayor bildirib: "Orta məktəbin 4-cü sinfini bitirən şagirdlərdən Xüsusi Məktəbə qəbul olunanlar bu ilin sentyabrından 1-ci kursda, yəni, 5-ci sinifdə təhsilə başlayacaqlar. Əsas məqamlardan biri də ondan ibarətdir ki, ötən il martın 5-də Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan yeni korpusunun açılış mərasimində iştirak edən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva kursantların tədrisi və yaşayışı üçün yaradılmış şəraitlə tanış olub, tapşırıq və tövsiyələrini verib. Bizim də vəzifəmiz Xüsusi Məktəbin fəaliyyətini gündən-günə inkişaf etdirmək, onun zəruri pedaqoji imkanlarını, maddi-texniki bazasını daha da genişləndirməkdən ibarətdir. İlk dəfədir ki, bu cür imtahan keçirilir. Valideynlərin övladlarının imtahan prosesini şəxsən müşahidə etmələrinin əsas məqsədi odur ki, onlar imtahanın tam şəffaf keçirilməsinə şahid olsunlar. İmtahanda hər biri 5 balla qiymətləndirilən 60 sual verilir. Ən yüksək bal toplayan 48 nəfər bu ilin sentyabrından DSX-nin Xüsusi Məktəbinin birinci kursunda təhsilə başlayacaqlar. İkinci mərhələdə isə onların ailələri ilə bağlı öyrənmə tədbirləri keçiriləcək, tibbi yoxlanış aparılacaq. İmtahanın cavabları qısa müddətdə elan ediləcək. Valideynlərin hər hansı müraciətlərinin, suallarının cavablandırılması üçün xüsusi komissiya təşkil olunub. Bütün müraciətlərə dərhal baxılacaq və yerindəcə qərar qəbul olunacaq. Təcrübə göstərir ki, DSX Xüsusi Məktəbinə müraciətlərin sayı əhəmiyyətli dərəcədə artır. Güman edirəm ki, DSX-nin zabit heyəti ilə komplektləşdirilməsi ehtiyacı nəzərə alınaraq məktəbdə yerlərin sayı artırıla bilər".

Xatırladaq ki, məktəbə qəbulla əlaqədar sənədlərin qəbulu bu il fevralın 15-dək həyata keçirilib.

DSX Xüsusi Məktəbinin fəaliyyətə başlaması ilə Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyini təmin edəcək ixtisaslı zabit kadrların hazırlanması üçün 11 illik, bundan sonra isə zabitlərin ixtisas artırması üçün ikiillik akademik kurslardan ibarət təhsil dövrünü əhatə edən mükəmməl hərbi tədris sistemi formalaşıb.

**AZƏRTAC**

*Reportaj*

# Onlar Azərbaycan ordusunda xidmət edəcəklər

...Səhər tezdən olsa da baharın ılıq nəfəsi insanlarda xoş ovqat yaradır, müharibə və əmək veteranları, qəlbləri Vətən eşqi ilə döyünən gənclər, valideynlər dəstə-dəstə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon idarəsinə doğru axışır, hər tərəfdə üçrəngli Azərbaycan bayrağı dalğalanırdı.

Təbiətin qoynunda hərbi xidmətə yola düşən gənclər mərasim iştirakçıları ilə xatirə şəkilləri çəkdirir, hiss olunurdu ki, onlar xidmət dövründə vətənimizin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaqlar.

İdarənin ikimərtəbəli binasına daxil olarkən "Ordum varsa, yurdum var", "Azərbaycanın Milli Qəhrəmanları", "Şəhidlər intiqama çağırır", "Vətənə sipər oğullar" və digər plakat və şüarlar diqqəti cəlb edir.

Gənclərin ordu sıralarına yolasalınma mərasimində danışıq üçün ilk söz **idarənin rəisi, polkovnik Polad İbrahimova** verilir. O, ilk öncə tədbirə qatılan insanları salamlayır, daha sonra isə qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı bölür:

—Dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqın əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan ordumuz son illərdə daha da möhkəmlənmiş, mütəşəkkil hərbi qüvvəyə çevrilmişdir. Azərbaycan ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirfir.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir.

Siz gənclər Azərbaycanın bugünü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini sizə etibar edirik, əminliklə demək olar ki, sizin qüdrətiniz, cəsurluğunuz sayəsində çox tezliklə işğal altında olan torpaqlarımız azad ediləcək, mənfur düşmənlərimiz olan erməni daşnakları öz məkrli niyyətlərini heç vaxt reallaşdıra bilməyəcəklər.

Müasir, mütəşəkkil ordunu yaratmaq ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan ordusu qarşıda duran bütün vəzifələri yerinə yetirməyə qadir bir ordudur.

Son illərdə ordu quruculuğu ilə bağlı strateji xətt Azərbaycanda prioritet istiqamətlərdən biri olaraq qalır. Orduda islahatların aparılması və hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi dövlət başçısının daim diqqət mərkəzindədir. Güclü iqtisadi potensial və güclü ordu Azərbaycanın bölgədə lider ölkə olduğunu şərtləndirən əsas istiqamətlərdəndir.

Polkovnik Polad İbrahimov qürur hissi ilə vurğuladı ki, qüdrətli Azərbaycan 2016-cı ilin aprelində öz gücünü bir daha nümayiş etdirmiş, döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirmiş, sübut etdirmişdir ki, ermənilər ordumuzun qarşısında heç vaxt tab gətirə bilməz.

Ordu quruculuğu ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: **"Biz öz hərbi gücümüzü artırmalıyıq və artırırıq. Bu gün Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri şərəflə yerinə yetirməyə hazırdır. Bir daha demək istəyirəm ki, döyüş qabiliyyəti, peşəkarlıq, vətənpərvərlik ruhu, maddi-texniki bazanın möhkəmlənməsi, orduya dövlət tərəfindən göstərilən diqqət və hörmət - bütün bu amillər bizə imkan verəcək ki, doğma torpaqlarımızı işğaldan azad edək".**



Gənclərin həqiqi hərbi xidmətə yolasalınma mərasimində Şəhriyar Cəfərli valideynlər adından çıxış edərək bildirdi ki, Azərbaycan öz ordusunu gücləndirir. Biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı azad edək. Biz sülhün tərəfdarıyıq. Azərbaycan sülh siyasəti aparır. Amma, eyni zamanda biz heç vaxt barışa bilmərik ki, torpaqlarımız işğal altında qalsın. Qəhrəman, mətin Azərbaycan əsgərləri çox tezliklə qələbə bayrağını Şuşa, Laçın, Qubadlı, Kəlbəcər və işğal altında olan digər Oğuz ellərində dalğalandıracaqlar.

Əziz balalar, siz sabahın əsgərlərisiniz. Xidmət dövründə hərbi texnikanın sirlərini mükəmməl öyrənməli, ata-babaların şanlı döyüş ənənələrinə sadiq qalmalısınız. Qürur hissi keçirirəm ki, bu gün bir atatək öz doğmalarımla, milli musiqimizin sədaları altında oğlum Anarı əsgəri xidmətə yola salıram.

Ordu sıralarına yola düşən Fərhad Mahmudov öz çıxışında ölkəmizdə gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin təkmilləşdirilməsi işində müasir texnologiyalardan istifadə və yeni metodların tətbiqindən danışdı. Əminliklə bildirdi ki, erməni daşnakları heç vaxt güclü Azərbaycan ordusunun qarşısında tab gətirə bilməzlər.

Ömürdən bir yaz günü də keçir. Meydan yenidən musiqiyə verilir. Gənclərdən Elçin Abdullayev, Murad Mahmudov və başqaları avtobuslarda yerini tutub coşqu, doğmalarının xeyir-duası ilə ordu sıralarına yollanırlar...

**Qədir ASLAN,**
**"Respublika".**

*7 aprel - Ümumdünya Sağlamlıq Günüdür*

# Ömürlərə ömür calamaq müqəddəs işdir

**Son illər Azərbaycan səhiyyəsinin idarə olunması, tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, yeni texnologiyaların tətbiqi, köklü kadr islahatları onu dünyanın qabacıl ölkələrinin səviyyəsinə çıxarmağa imkan yaradıb. Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində səhiyyədə müsbət irəliləyişlər müşahidə olunur. Tibb müəssisələrinin təmir və bərpası vətəndaşların pulsuz dərman vasitələri və preparatlarla təmin olunması onların müalicəsi, regionlarda diaqnostika mərkəzlərinin tikilərək istifadəyə verilməsi, xüsusilə uşaqların bütün tibbi xidmətlərlə ən yüksək səviyyədə əhatə olunması səhiyyə sahəsində aparılan islahatların əsas istiqamətlərini təşkil edir.**



7 aprel - Ümumdünya Sağlamlıq Günüdür. Bu gün 1950-ci ildən bəri qeyd edilir. Ümumdünya Sağlamlıq Günü diqqəti səhiyyə sahəsində beynəlxalq ictimaiyyətə təsir göstərən başlıca problemlərə yönəltmək üçün dünya səhiyyəsində bir imkandır.

Paytaxtımızdakı səhiyyə nazirliyinin akademik Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində insanların sağlamlığının qorunub saxlanılması istiqamətində məqsədyönlü iş aparılır. Ən yüksək sağlamlıq səviyyəsinə nail olunmasına maksimum səy göstərilir, elmin son nailiyyətlərindən səmərəli istifadə olunur.

Biz Ümumdünya Sağlamlıq Günü ərəfəsində Elmi Cərahiyyə Mərkəzinin direktoru, professor, Azərbaycan Pespublikasının Əməkdar həkimi Rauf Ağayevlə görüşüb söhbət etdik. Müsahibimiz bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:





Elmi Cərahiyyə Mərkəzi 1961-ci ildən fəaliyyət göstərir. Ötən müddətdə mərkəz nümunəvi sağlamlıq ocaqlarından birinə çevrilmişdir. Ümumdünya Sağlamlıq Günü ilə bağlı kollektivimizin əldə etdiyi uğurlardan fərəhlə söhbət açmaq olar.

İlk dəfə 1947-ci ildə akademik M.A.Topçubaşovun təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyasının Rəyasət Heyətinin qərarı ilə Akademiyanın nəzdində Elmi-Tədqiqat Eksperimental Təbabət İnstitutu yaradılması barədə qərar qəbul edilmişdir.

1961-ci ildə SSRİ Elmlər Akademiyası və Azərbaycan Elmlər Akademiyasının birgə qərarı ilə Kliniki-Eksperimental Təbabət İnstitutunun təşkil edilməsi barədə qərar qəbul olunubdur. Bu qərara əsasən Azərbaycan Respublikasının Nazirlər Soveti 15 sentyabr 1961-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının nəzdində Kliniki-Eksperimental Təbabət İnstitutnun yaradılması barədə 759 saylı Qərar qəbul etmişdir.

Faktiki olaraq həmin institut 1962-ci ilin may ayında Azərbaycan Respublikasının Elmlər Akademiyasının vitse-prezidenti, Sosialist Əməyi Qəhrəmanı, akademik M.A.Topçubaşovun rəhbərliyi ilə fəaliyyətə başlamışdır. İnstitutun ilk fəaliyyətində yaradılmış beş şöbələrinə: prof. F.Ə.Əfəndiyev (köks cərrahiyyəsi), akademik M.A.Topçubaşov (eksperimental cərrahiyyə), prof. C.M.Abdullayev (kardiologiya), prof. C.Y.Hüseynov (patomorfologiya) və professor Z.M.Məmmədov (endokrin cərrahiyyə) rəhbərlik etmişlər. Adları qeyd olunan professorların institutda elmi kadrların hazırlanmasında və praktiki fəaliyyətin təşkil olunmasında xidmətləri böyük olmuşdur.

1963-cü ildə institut SSRİ Tibb Elmləri Akademiyasının tərkibinə keçmiş və 3 ildən sonra, 8 iyun 1966-cı ildə SSRİ Səhiyyə Nazirliyinin 443 saylı əmri ilə Azərbaycan Səhiyyə Nazirliyinin tabeliyinə verilmişdir. 1973-cü ilə qədər institutun öz binası olmadığından onun şöbələri şəhər kliniki xəstəxanalarında (2,4 saylı) yerləşmişdir. Ancaq 1973-cü ildə institut yeni binaya köçürülmüş və onun daha aktiv fəaliyyət göstərməsinə şərait yaradılmışdır.

Səhiyyə Nazirliyinin 111 saylı 14 aprel 1980-ci il tarixli Əmri ilə instirtut respublikanın cərrahiyyə üzrə baş elmi müəssəsi təyin edilərək, respublikada cərrahi xidmətin koordinasiyası və elmi-metodik rəhbərliyi ona həvalə edilmişdir.

17 mart 1983-cü ildə Səhiyyə Nazirliyinin 73 saylı əmrinə əsasən ona Elmi-Tədqiqat Kliniki və Eksperimental Cərrahlıq İnstitutu adı verilmişdir.

01 noyabr 1983-cü ildə Səhiyyə Nazirinin 291 saylı Əmrinə əsasən instituta akademik Mustafabəy Ağabəy oğlu Topçubaşovun adı verilmişdir.

12 dekabr 1997-ci ildə instituta M.A.Topçubaşov adına Respublika Elmi Cərrahlıq Mərkəzi adı və statusu verilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2000-ci tarixli 49 saylı Əmrinə əsasən İnstitut Elmi-Tədqiqat Qastroenterologiya İnstitutu ilə birləşdirilərək, M.A.Topçubaşov adına Elmi-Tədqiqat Kliniki Təbabət İnstitutu adlandırılmışdır.

2009-2010-cu illərdə ölkə Prezidenti cənab İlham Əliyevin göstərdiyi qayğı və səhiyyə naziri Oqtay Şirəliyevin gündəlik nəzarəti ilə ECM-nin kliniki bazasının əsaslı təmirinə başlanmış oldu.

2010-cu ilin 24 dekabrında ən yüksək tələblərə cavab verən əsaslı təmirdən və ən müasir tibbi avadanlıqlarla təmin olunmuş ECM klinki bazanın respublikamızın Prezidenti İlham Əliyev tərəfindən açılışı oldu.

Elmi Cərrahiyyə Mərkəzində 50-yə qədər tibb elmləri doktorluq və 150- dən çox namizədlik dissertasiyaları müdafiə olunmuş, onlarca monoqrafiya və dərsliklər, minlərcə elmi məqalə və tezislər çap edilmiş, çoxsaylı konqreslər, konfranslar və simpoziumlar keçirilmiş və onlarca ixtira şəhadətnamələri alınmışdır. Mərkəzdə aparılan müasir müayinə metodları, radikal, konstruktiv və bərpaedici əməliyyatlar öz nəticələrinə görə beynəlxalq göstəricilərə uyğundur və bu sahədə daima təkmilləşmə aparılmaqdadır.

Anadangəlmə və qazanılmış ürək qüsurlarının cərrahi müalicəsində olan nailiyyətlər də önəmlidir. Mərkəzin nəzdində yeni yaradılmış uşaq ürək cərrahiyyə şöbəsi bu sahədə olan çatışmazlığın aradan qaldırılmasına imkan yaratmışdır.

Elmi axtarışların planlaşdırılmasında və eləcə də müasir müayinə və müalicə metodlarının tətbiq olunmasında beynəlxalq əlaqələrin yaradılmasının zəruri olmasını nəzərə alaraq son illər ECM-nin bir sıra xarici ölkələrin mərkəzləri ilə (Almaniya, Rusiya, Türkiyə, Ukrayna və s.) yaratdığı elmi-praktiki əməkdaşlıqlar nəticəsində praktiki fəaliyyətin müasirləşməsində, planlaşdırılmış elmi işlərin beynəlxalq tələblərə uyğun olmasında köməklik göstərmişdir. Bir sıra elmi məqalələrimizin reytinqi yüksək olan beynəlxalq tibb jurnallarında çap olunmasına imkan yaranmışdır.

Azərbaycan Respublikası səhiyyə nazirinin 65 saylı, 12 iyul 2007-ci il tarixli Əmrinə əsasən İnstituta Elmi Cərrahiyyə Mərkəzi adı verilmişdir.

Bu gün Elmi Cərrahi Mərkəzdə Uşaq Ürək Cərrahiyyə Mərkəzi, kardiocərrahiyyə, damar cərrahiyyəsi, endokrin cərrahiyyəsi, mədə-bağırsaq cərrahiyyəsi, anesteziologiya və reanimasiya, patomorfologiya, ekstrakorporal detoksikasiya və hemodializ, eksperimental cərrahiyyə, Şüa-diaqnostikası elmi şöbələri, fizioterapiya, qanköçürmə və qəbul şöbələrindən ibarətdir.

Cərrahi mərkəzin 636 əməkdaşı vardır və onlardan 136-sı elmi əməkdaş, 91-i həkim-ordinator, 175-i isə orta tibb işçiləridir.

Mərkəzdə 8 professor, 15 elmlər doktoru, 8 dosent və böyük elmi işçi, 36 tibb elmləri üzrə fəlsəfə doktoru çalışır.

Biz Ümumdünya Sağlamlıq Günü ilə bağlı Elmi Cərahiyyə Mərkəzinin elmi işlər üzrə müavini, professor, Dünya Cərrahlar Cəmiyyətinin həqiqi üzvü Hidayət İsayevlə söhbətimizi davam etdirdik. O, vurğuladı ki, mərkəz 10 elmi-tədqiqat şöbəsindən, 6 elmi-tədqiqat laboratoriyasından və 1 Elmi İnnovasiya və İnformasiya şöbəsindən ibarətdir. Akad. M.A.Topçubaşov adına ECM 270 çarpayılıq kliniki bazaya malikdir. ECM-nin yuxarıda qeyd edilən şöbə və laboratoriyalarında 117 elmi işçi, 10 laborant, 89 həkim, 8 doktorant və 4 dissetant çalışır. Onlardan 18 nəfəri tibb üzrə elmlər doktoru, (11 professor), 74 nəfəri tibb üzrə fəlsəfə doktoru, 1 nəfəri biologiya üzrə fəlsəfə doktorudur.

Elmi Cərrahiyyə Mərkəzi respublikada cərrahi xidmətə elmi-metodik rəhbərlik edir. Təcrübəli əməkdaşlarımızdan təşkil olunmuş 9 işçi qrupu son dövrdə respublikamızın əksər şəhər və rayonlarını əhatə edən 4 regionda olmuşdular.

Ötən il Dissertasiya Şurasının 23 iclası keçirilmiş, 8 nəfərin tibb üzrə fəlsəfə doktoru, 2 nəfərin isə tibb üzrə elmlər doktoru dissertasiyaları müzakirə edilmişdir. Azərbaycan Cərrahlar və Qastroenteroloqlar Cəmiyyətinin idarə heyətinin 6 ümumi iclası keçirilmişdir. İdarə heyətinin iclaslarında ümumi iclasların keçirilməsi, seminar və konqreslərin təşkili məsələləri həll olunmuşdur. Cərrahiyyə jurnalının 2018-ci ildə 4 nəşri çapdan çıxmışdır.

İnsan üçün ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri durur. Elmi Cərrahiyyə Mərkəzinin kollektivi tibbin inkişafına maksimum səy göstərəcək, insanlara həyat vermək, sağlamlıqlarını qoruyub saxlamaq üçün ikiqat səylə çalışacaqdır.

**Qədir ASLAN,**
**"Respublika".**

# Azərbaycanın 10 milyonuncu sakini doğulub

**2019-cu il aprelin 6-da saat 03:30-da Bakı şəhərində ölkənin 10 milyonuncu sakini doğulub.**

AZƏRTAC Səhiyyə Nazirliyinə və Dövlət Statistika Komitəsinə istinadla xəbər verir ki, Azərbaycan Respublikasının vətəndaşları Rauf Həsənovun və Nigar Ocaqovanın ailəsində doğulan qız uşağının çəkisi 3,6 kiloqram, boyu 52 santimetrdir.

**AZƏRTAC**

*Unutsaq unudularıq*

# Dövlətə, dövlətçiliyə sədaqətli ziyalı

Onu iyirmi bir ildir tanıyıram. İlk tanışlığımız vaxtı İsmayıllı Rayon İcra Hakimiyyətində şöbə müdiri işləyirdi. Xidməti işimlə əlaqədar tez-tez görüşürdüm. Rayonun sosial-iqtisadi həyatından yazılar hazırlanmasında jurnalistlərin ən yaxın köməkçisi, sirdaşıydı. Bu dostluğun, sirdaşlığın təməli o hələ rayonda müəllim kimi əmək fəaliyyətinə başlayandan, rayon qəzetinə redaktorluq edəndən, maraqlı yazılarıyla respublika mətbuatına ayaq açandan qoyulub və onu Azərbaycan Jurnalistlər Birliyinə üzvlüyə kimi aparıb. Özünün dediyi kimi, ömrünün ahıllıq çağında, daha doğrusu, ömür kitabının yetmiş altıncı səhifəsinin açıldığı vaxtda, üç qız, bir oğul atasının, on bir nəvənin babasının getdiyi bu yol onun üçün ən yaddaqalanı, xoşbəxtliyinə əbədi möhür vuranıdır. Çünki bu yol nəvə Valehlə baba Valehin ayaq izlərini özündə yaşadan yoldur. Ona görə də hər dəfə gedib-gələndə daha da cavanlaşır. Yol boyunca verilən sorğu-suallar Valeh babanı geriyə, özünün uşaqlıq illərinə qaytarır. O vaxtlarla bu günün firavanlığının müqayisəsində müstəqil Azərbaycan uşaqlarının xoşbəxtliyindən və onların arasında özünün də on bir nəvəsi olmasından hədsiz qürurlanır.

İsmayıllı rayonunda hamının vəfalı dost, dəyərli ağsaqqal, nüfuzlu ziyalı kimi tanıdığı Valeh Salehov həm də dövlətə, dövlətçiliyə olan tükənməz sədaqəti, məhəbbəti ilə də sayılıb seçilir. Buna görə çoxlu mükafatlar, fəxri fərmanlar alıb. Ancaq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medal ilə təltif olunması ömrünün ən gözəl, unudulmaz bəzəyidir.

Hərdən övladları, nəvələri ilə bir yerdə olanda keçən günlərindən, unudulmaz xatirələrindən danışır. 1972-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirəndən sonra doğma rayonunda müəllimlik fəaliyyətinə başlaması, rayon qəzetində redaktor olması, on beş ilə yaxın rayon təhsil şöbəsinə rəhbərlik etməsi, nəhayət, rayon icra hakimiyyətinə irəli çəkilməsi və orada şöbə müdiri vəzifəsinə təyin edilməsi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü olması kimi unudulmaz tarixlər övladlarının da, nəvələrinin də yollarında həmişə yaşıl işıq yandırıb. Qızlarının biri həkim, digəri isə müəllimdir. Oğlu Taleh İqtisad Universitetini qurtarıb, bu yaxınlarda Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ikinci təhsilini başa vurub. Rayon gənclər və idman idarəsinin rəisidir.

İllərin əks-sədasından gələn soraqların diktəsi ilə bəzi adamların ürək sözlərini eşitdik.

**Hafiz Kərimov - Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı İsmayıllı Rayon Komitəsinin sədri:**

—Valeh müəllimlə bir yerdə rayon təhsil şöbəsində işləmişəm. O, şöbə müdiri, mən isə həmkarlar ittifaqı komitəsinin sədri. On beş ilə yaxın şöbə müdiri işlədiyi vaxtda rayonda olan 1500-ə yaxın müəllimlə yaxın və səmimi yoldaşlıq münasibəti saxlamaqla yanaşı, onların hər birinə lazımi qayğı göstərməyi bacaran rəhbər olub. Həmişə şən olan, yumor və lətifələri sevən, poeziyanı xoşlayan Valeh müəllimin yaxşı yol yoldaşlığı da var. Vəzifələrdə işlədiyi dövrdə də Ermənistandan qovulan soydaşlarımızın rayonumuzda yerləşdirilməsində onun fəal ziyalılığı, dövlətçiliyə hədsiz sədaqəti, millətini necə ürəkdən sevməsi danılmazdır. Valeh müəllim ulu öndər Heydər Əliyev ideyalarının ən gözəl təbliğatçılarındandır. O, bu gün təqaüddə olsa da, yenə ictimaiyyət arasında öz ziyalılıq, ağsaqqallıq borcuna vicdanının səsi ilə səs verir.

**Şəfaqət Rəsulov - Əməkdar müəllim:**

—Uzun müddət birlikdə çalışdığıma görə onu yaxşı tanıyıram. Dərin elmi və nəzəri biliyə malik olmaqla yanaşı, idarəetmə sahəsində də yüksək təcrübəyə malikdir. Çalışdığı yerlərdə, rəhbərlik etdiyi kollektivlərdə həmişə işçilərə, yoldaşlarına qarşı qayğıkeş və diqqətli olub. Məsul vəzifələrdə işlədiyi vaxtlarda çox cavan olmasına baxmayaraq, rayonun sayılıb-seçilən ağsaqqallarından biri kimi tanınırdı.

**Murad Məhərrəmov - İsmayıllı Rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini:**

—Valeh müəllim institutu fərqlənmə ilə qurtarıb. Müəllim işləyib, rayonun müəllimlər ordusuna rəhbərlik edib, rayon qəzetinin redaktoru kimi fəaliyyət göstərib, rayon icra hakimiyyətində məsul vəzifələrdə çalışıb. Bir sözlə, vəzifələr, vəzifə kürsüləri çox dəyişib. Ancaq dəyişməyən Valeh müəllimin insanlığı, dövlətə sədaqəti, vicdanının təmizliyi olub. Sadə, pak bir müəllim ömrü yaşayıb.



Növbəti gəlişimizdə biz də Valeh müəllimlə görüşməyi qərarlaşdırdıq. Elə icra hakimiyyəti aparatında otaqlardan birində görüşdük. Masanın üstündə çoxlu qəzetlər, kağızlar vardı, nə isə yazırdı.

—Ürəklərimiz necə yaxındır - deyə salamlaşıb, hal əhval tutdu. Sözünə davam edib - "Respublika" qəzetində bir neçə nömrədir ardıcıl verilən ölkəmizin sosial-iqtisadi həyatı ilə bağlı yazıları çox maraqla oxuyuram. Material hazırlayıb redaksiyanıza göndərmək istəyirəm. - dedi. - Qəzet bununla çox gözəl iş görür, dövlətimizin bugünkü sürətli inkişafını bütün dünyaya çatdırır. Bu cür materiallara indiki vaxtda çox ehtiyac var.

Xeyli, söhbətləşdik. Elə bu vaxt cib telefonuna zəng gəldi:

—Bir azdan gəlirəm, darıxmayın, - deyə cavab verib sonra - evdəndir, həyat yoldaşım deyir ki, uşaqların, nəvələrin, bütün əzizlərin yığışıb səni gözləyirlər - dedi: Gülümsəyə-gülümsəyə - axı, mən bu gün - fevralın yeddisində bir yaş da böyüyürəm, yetmiş beşdən yetmiş altıya keçirəm. Köhnə tanışlar kimi mən bir qədər də sevindim. Çünki həmişə cavan görünən Valeh müəllimin bugünkü gəzişi, gülüşü, işləmək həvəsi onun yetmiş beşə çatdığını yox, əksinə daha cavan olduğunu diktə edirdi. Aldığım dəvətə görə axşam Valeh müəllimin ad günü münasibətilə keçirilən tədbirin iştirakçısı oldum. Orada evin ağsaqqalına, övladların atasına, kürəkənlərin qayınatasına, ən başlıcası da nəvələri Fatimənin, Hüseynin, Cəfərin, Kainatın, Tərlanın, Simranın, Valehin, Xədicənin, Gülərin, Zeynəbin və Gülnurənin babaya olan sonsuz məhəbbət və sevgisinin şahidinə çevrildim. Valeh müəllim həyatdakı uğurlara görə dövlətinə, mehriban, səmimi ailəsinə, dostlarına, bütövlükdə xalqına və ziyalılıq fəaliyyətinə həmişə dəyər verən rayon icra hakimiyyətinə minnətdardır.

**Rasim AMANOV,**
**"Respublika".**

# UTECA ikili diplom siyahısını genişləndirir

Azərbaycan Texnologiya Universiteti (UTECA) ilə Türkiyənin Rəcəb Tayyib Ərdoğan Universiteti arasında ikili diplom əlaqələri qurulub. Bu məqsədlə UTECA nümayəndələri Türkiyəyə səfər ediblər. Rəcəb Tayyib Ərdoğan Universitetində UTECA-nın Tədris şöbəsinin müdiri Piri Axundov, Magistratura və doktorantura şöbəsinin müdiri Sadiq Əfəndiyev, İqtisadiyyat və İdarəetmə fakültəsinin dekanı Nüşabə Hacıyeva və Menecment kafedrasının müdiri Xalidə Ağayeva təmsil ediblər. 3 günlük səfər çərçivəsində biznesin təşkili və idarə olunması, turizm, dövlət və bələdiyyə idarə edilməsi ixtisasları üzrə ikili diplomla bağlı danışıqlar aparılıb, gələn ildən UTECA tələbələrinin təhsil müddətinin yarısını Rəcəb Tayyib Ərdoğan Universitetində davam etdirməklə ikili diplom əldə edəcəklərinə dair razılığa gəlinib. Rəcəb Tayyib Ərdoğan Universitetinin




rəhbər heyətilə işgüzar görüş çərçivəsində tədris planları, dərs proqramları geniş müzakirə olunub. Bununla yanaşı hər iki universitet arasında mövcud tələbə-müəllim mübadiləsi sahəsində yeni nəticələrin əldə olunması gündəmə gətirilib.

Qeyd edək ki, UTECA-nın Yüngül sənaye mühəndisliyi və logistika fakültəsinin nəqliyyatda daşımalar və idarəetmənin təşkili mühəndisliyi ixtisası üzrə ikili diploma keçidlə bağlı Rusiyanın Nijniy Novqorod Dövlət Texniki Universiteti ilə ötən ay əməkdaşlıq memorandumu imzalanıb. Sənədə əsasən həmin ixtisasa bu il qəbul olacaq tələbələr təhsil alacaqları müddətin yarısını Azərbaycan Texnologiya Universitetində, digər hissəsini isə Nijniy Novqorod Dövlət Texniki Universitetində keçəcəklər. Sonda həmin tələbələr hər iki universitetin diplomunu əldə edəcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# ADNSU ilə "ATENAU" MMM arasında əməkdaşlıq memorandumu imzalanıb

**Aprelin 5-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı ATENAU Məhdud Məsuliyyətli Müəssisənin (MMM) direktoru Azər Əhmədov ilə görüşüb.**

Əməkdaşlıq imkanlarının və İntellektual İdarəetmə sahəsində birgə yeni layihələrin müzakirə olunduğu görüşdə rektor, professor M.Babanlı universitetdə görülən işlər barədə qonağa məlumat verib. ATENAU ilə birgə yeni layihə olan "İntellektual İdarəetmə Sistemləri Tədris Mərkəzinin yaradılmasının tələbə və magistrantlar üçün böyük imkanlar açacağını deyən rektor M.Babanlı layihənin tətbiqinin uğurlu nəticələr verəcəyinə ümidvar olduğunu bildirib.

Məzunu olduğu doğma universitetdə olmaqdan böyük fəxr hissi keçirdiyini deyən ATENAU-in direktoru A.Əhmədov ADNSU ilə əməkdaşlıq üçün geniş imkanlar olduğunu bildirib.

Tədbirin sonunda tərəflər arasında əməkdaşlıq memorandumu imzalanıb.

Qeyd edək ki, müqaviləyə əsasən ADNSU-nun Avtomatika və Telemexanika kafedrasının nəzdində CRESTRON şirkətinin avadanlıq və materialları bazasmda "İntellektual İdarəetmə Sistemləri" Tədris Mərkəzinin yaradılması, mərkəzdə bakalavr və magistrlar üçün avtomatika və idarəetmə sistemləri üzrə praktik, laborator və nəzəri dərslərin keçirilməsi və bu istiqamətdə mütəxəssis hazırlığı kurslarının təşkil olunması nəzərdə tutulur.

**"Respublika".**

# Xüsusi Yay Olimpiya Oyunları qalibinin uğurları

**Gəncə Dövlət Universitetində keçirilən Elmi Şurada GDU-nin rektoru, professor Yusif Yusibov Xarici dillər fakültəsinin 2-ci kurs tələbəsi, Ümumdünya Xüsusi Yay Olimpiya oyunlarının qalibi Aytac Səmədovanı təbrik edib, "Fəxri fərman", hədiyyə və pul mukafatı təqdim etmişdir.**

Son illərdə universitetin elm və təhsillə yanaşı, idman sahəsində də böyük uğurlar qazandığını deyən rektor nailiyyətlərə görə gənclərin fəaliyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, hazırda Gəncə Dövlət Universitetində bir çox beynəlxalq yarışların qalibi olmuş tələbələr təhsil alırlar. Universitet tərəfindən onlara hər cür şərait yaradılmışdır. Rektor çıxışının sonunda idmanın ikişafında göstərdiyi sonsuz diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlığını ifadə edib.

Məlumat üçün bildiririk ki, Alman dili ixtisasının 2-ci kurs tələbəsi, ailəsi Xocalı şəhərindən məcburi köçkün



düşən Aytac Səmədova 1999-cu ildə Gəncə şəhərində anadan olub. Artıq 4 ildir ki, paorlifting idman növü üzrə məşğul olan Aytac Səmədova ilk dəfə 2015-ci ildə ABŞ-ın Kaliforniya ştatının Los Anceles şəhərində keçirilən Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında iştirak edib və milli komandamızın ilk gümüş mükafatçısı olub. Bu il isə martın 7-dən 23-dək Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə keçirilən Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarında iştirak edib. Milli komandamızın tərkibində ölkəmizi paorlifting idman növü üzrə təmsil edən Aytac Səmədova yığmamıza ilk olaraq biri qızıl olmaqla 4 medal qazandırıb. Respublikanın Əməkdar məşqçisi Natiq Əliyevin yetirməsi olan gənc idmançı bu mötəbər oyunlarda iştirak edərək ayaq üstə ağırlığı yenidən qaldırmada qızıl medal, ağırlığı çiyinə alaraq oturub-durmada gümüş medal, uzanaraq ağırlığı sinəyə almaqda bürünc medal, üç hərəkətin cəminə görə yenə gümüş medal qazanıb. Çempion Aytac Səmədova universitetin rektoru, professor Yusif Yusibovun daimi ona dəstək olduğunu vurğulayaraq, özü və ailəsi adından minnətdarlığını bildirmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# ƏN BÖYÜK MÜKAFATIM - ƏSƏRLƏRİMDİR!



Müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin tanınmış nümayəndələrindən olan Əmir Pəhləvan (Hacıyev Əmir Pəhləvan oğlu) 1959-cu ildə Naxçıvan MR-in Şahbuz rayonunun Mahmudoba kəndində anadan olub. Cəlil Məmmədquluzadə adına Şahbuz rayon orta məktəbini bitirdikdən sonra Rusiyanin Novosibirsk vilayətində əsgəri xidmətdə olub. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb (1980-1985). Eyni zamanda Azərbaycan radiosunun Cənub verilişləri redaksiyasında "Gəncliyin səsi" proqramının yaradıcısı kimi fəaliyyətə başlayıb (1981), "Baku", "Bakı" axşam qəzetlərində (1985-1988), "Azərbaycan müəllimi" qəzetində (1988-1990) müxbir işləyib, "İlham" qəzetinin təsisçisi və baş redaktoru olub (1990).

1985-ci ildə Əmir Pəhləvan ali məktəbin sonuncu kursunu bitirməmiş "Bakı", "Baku" axşam qəzetlərinə müxbir kimi işə götürülür. Buradan o, "Azərbaycan müəllimi" qəzetinə dəvət olunur. Həmin illərdə Azərbaycan mətbuatında təcrübəli publisist kimi tanınır və onun "O ay bir də doğmayacaq" adlı ilk kitabı çapdan çıxır. 1990-cı ildə "İlham" mədəniyyət qəzetini təsis edərək baş redaktoru olur. Ölkəmizin ağır və çaxnaşmalarla dolu olan bu dövründə Əmirin bütün yazılarında xalqın sərt və dönümsüz "alın yazısı", "qisməti" diqqət mərkəzinə çəkilir. Adamlar əziyyət və biganəlik içərisində çırpınaraq qismətə boyun əyməkdən qaçırlar. O, bütün bunları, sadəcə, təsvir eləmir, çəkilən əzablara, iztirablara, məşəqqətə qoşulur, inanır ki, qismətdən "yuxarı" ulu bir varlıq var! Belə bir qismət publisist, yazıçı-şair Əmir Pəhləvanı zamanın axarı ilə kinoya gətirir. Daha doğrusu, o, qəzetdə "deyə bilmədiklərini" ekran dili ilə dünyaya çatdırır. 1995-ci ildə "Step LTD" kinoşirkətini təsis edir, şirkətin xəttilə yaradılan "Fransız", "Qarabağ şikəstəsi", "Spasibo", "Qız qalası" bədii filmlərinin, "Bakı nefti və Nobellər", "Avtoritet", "Göyçay yəhudiləri", "Doqquzuncu oğuz uyğurları", "Kurqanlar", "Hunqariya", "Şəhriyar", "Svilizasiya beşiyi - Çin", "Tahirə" və başqa sənədli ekran əsərlərinin müəllifi və rejissoru olur. O bu filmlərində tariximizin, taleyimizin maraqlı səhifələrini canlandırmışdır. Əmir Pəhləvan qərbləşməyə Paris dəbi kimi baxanların içində mədəni köləliyi "Fransız" adlı filmi ilə damğalayır. Növbəti "Qarabağ şikəstəsi" filmi ilə o, Azərbaycanın acı taleyini, qismətinə qaçqınlıq düşmüş insanların vətən nisgilini incə bir yumorla ekrana gətirir. Bu filmlər yeniləşən Azərbaycanda sovet kino incəsənətinin standart stereotiplərini və şablonçuluğunu dağıdaraq milli kinomuza, dramaturgiyamıza yenilik gətirir. O, öz filmləri ilə beynəlxalq festivallara çıxmış və ölkənin kino sənətini bu və digər dərəcədə təmsil etmişdir. 1998-ci ildə ABŞ-ın Kaliforniya ştatında milli atributlarımızdan olan Bayrağımıza həsr etdiyi "Spasibo" adlı bədii filmi Hollivud sənədli filmlər festivalında mükafata layiq görülmüş və Los-Ancelesin 18 telekanalında yayımlanmışdır. "Bakı nefti və Nobellər" adlı üçhissəli sənədli filmi isə Fransanın Nant şəhərində keçirilən "Üç qitə" kinofestivalında 2 medala layiq görülmüşdür. Bu film Almaniyada DVD diski formasında milyon tirajla yayımlanmışdır.

30 kitabı Azərbaycanda, 20 kitabı Ukraynada, 7 kitabı keçmiş possovet respublikalarında, 15 kitabı isə Avropa ölkələrində və Amerikada çap olunub. "Bakılı Nobel", "Neft taleli Nobel","Ayrılıq", "Səfir" "İsa, Məryəm və Sona" sənədli romanları, "Bakı nefti və Nobellər" üçhissəli sənədli filmi yüksək tirajla dünya oxucularına və tamaşaçılarına təqdim edilib.

Azərbaycanda ən çox oxunan kitabları bunlardır: "Qalxın, Cavid gəlir!", "Əkilən başlardı, torpaq əkilmir", "Turan türküləri", "Səfir", "Təbrizim, türk izim!", "Kəngərlilər", "Türklüyün yol xəritəsi", "O Ay bir də doğmayacaq", "Yaşamağı bacarmaq lazımdır", "Vətən dahiləri" ( I - II hissə ). "İnsan və İblis" pyesi Bakı Bələdiyyə Teatrında (1999), "İstədiyim yar idi" librettosu Musiqili Komediya Teatrında (2009) səhnələşdirilib.

**– Əmir müəllim, bu yaxınlarda Qazaxıstanın sabiq dövlət başçısı Nursultan Nazarbayev 60 illik yubileyinizə təbrik məktubu ünvanlayıb, Əlbəttə bu, sizə və Azərbaycan ədəbiyyatına, mədəniyyətinə verilən ən yüksək qiymətdir. Əsərlərinizə və şəxsən Sizə olan bu sevgi hardan qaynaqlanır?**

– Qazaxıstan və Qırğızıstan dövlət rəhbərləri tərəfindən dəfələrlə mükafatlandırılmışam. Fürsətdən istifadə edib həm - Nursultan Nazarbayevə, həm də Almazbəy Atambəyova öz dərin təşəkkürümü bildirirəm.

**"Türk sultanı - Nursultan", "Manas bayatıları", "Qəhrəman", "Dahilər vətəni" "Əmir Teymur", "Böyük fateh"** və başqa əsərlərimin hər biri Orta Asiyada böyük hadisəyə çevriləcəyi haqqında heç düşünməmişdim. Onu da nəzərinizə çatdırım ki, qırğızlarda oxucu auditoriyası başqa türk xalqları ilə müqayisədə olduqca böyükdür. O cümlədən də qazax və özbək xalqlarında. Üstəlik, Qazaxıstanda-Astanada nümayiş olunan "Bakı nefti və Nobellər" adlı 3 hissəli sənədli filmim ekranlarda göstəriləndən sonra yaradıcılığıma qarşı böyük marağa səbəb oldu və məni "Qazaxfilm"in ən yaxın dostuna çevirdi. Əslində mən bu əsərlərlə Turanın müqəddəs türklük mahiyyətinə xidmət edən ideologiyanın fəaliyyət istiqamətləri və milli ruhumuzun coşqun qiyamlarının əsrlər boyu qan yaddaşımıza kök atdığı tarixi həqiqətləri və xronologiyanı xatırlatmaq istəmişəm. Ulu Turanın müqəddəs vahidliyini "Manas" və "Əmir Teymur" əsərində dünya ictimaiyyətinə yeni fəlsəfi formatda təqdim etmişəm.

**– Əmir müəllim, bu cür maraqlı süjetli və tarixi əhəmiyyət daşıyan mövzulara müraciət etmisiniz. Buna səbəb nə idi...?**

– Birincisi, yazıçı üçün həyat özü azad bir yazı masasıdır. Necə deyərlər, sərhədsiz və qadağasız cüyür oylağıdır. Məni hansı mövzu maraqlandırırsa, onu da həvəslə qələmə alıram, yəni, nədən narahatamsa, nədən üzüntülü, ağrılıyamsa məhz bu narahatçılığın mənbəyinə - predmetlərinə üz tuturam. Yazdıqlarıma isə ürək qoyuram, necə deyərlər, onları canımla, qanımla yazıram. Sizlərə bir fakt söyləyim. 1937-ci ildə mənim doğma xalam yenicə ailə qurduğu həyat yoldaşı iə Qazaxıstanın Taldı Kurqan vilayətinə sürgün edilib. Onun övladları indi də orada yaşayırlar. Artıq ora onlar üçün Vətəndir. O sürgünlər yaradıb o Vətəni. Minlərlə azərbaycanlı ailəsi yaşayır o vilayətdə. Uşaq yaşlarında nənəmlə birlikdə Güssün xalamın yanında çox olmuşam. Sürgünün, həsrətin və "Yurd" yerlərinin - alaçıqlarının nə olduğunu öz gözlərimlə görmüşəm. "Türk sultanı - Nursultan" əsərində xalamla bağlı epizodlar, babam Ziyadın 1938-ci ildə güllələnməsi, yaxud oxşar mənzərələrin qazax xalqının başına gətirilməsi prosesi və digər faktlar sabiq prezident Nursultan Nazarbayevin də diqqətindən yayınmamışdı.

**– Çox maraqlıdı. Amma heç vaxt bu mövzuda söhbətlər eləməmisiniz. Sizin yaradıcılığınız və həyatınız necə də maraqlı imiş... Başqa hansı faktlar cənab prezidenti maraqlandırmışdı?!**

– Əsərdə qazax xalqının tarixi, görkəmli şair və ictimai xadim Abay Kunanbayev yaradıcılığı, "İsgəndər" poemasının qazax xalqının milli oyanışında və təfəkküründə rolu, Kəngərlilərin tarixi yurd yerləri və ən əsası Astana ( indiki Nursultan) kimi möhtəşəm bir şəhərin Nursultan Nazarbayev tərəfindən inşa edilməsi və öz adına əbədiləşdirilməsi. Dünyada son 200 ildə heç bir millət və heç bir prezident yeni paytaxt - mərkəz inşa etməmişdir. Məhz bu N.Nazarbayevə qismət olmuşdur.

**– Əmir müəllim, "Manas" dastanı haqqında yazdığınız bayatılar haqqında fikirlərinizi bilmək istərdik. Niyə məhz bayatı janrına üz tutdunuz. Bax, bu çox maraqlı olardı oxucularımız üçün.**

– "Manas" həcmcə dünyanın boyük dastanıdır. "Manas bayatıları" kitabımda isə dastanda olan obrazların və ümumilikdə Orta Asiya coğrafiyasına aid bütün toponimlərə bayatılar həsr etmişəm. Əsər qardaş qırğız xalqının mənəvi siması olan "Manas"ın Türk dünyası üçün Birlik ruhunun lirik - poetik təcəssümüdür. "Manas bayatıları"nın folklor janrında təcəssümünü bədii obrazlarla və mövzu orjinallığı ilə qələmə almağım dastanın ruhuna xələl gətirməməyim üçün seçilmişdir. Böyük türk etnosunun mənəvi gücünü əks etdirən bu bayatılar, eyni zamanda zamanüstü və təhdəlşüur məna qatlarına, mənəvi-pisixoloji dərinliyə nüfuz etməkdir. Bu baxımdan mən folklor nümunəsi olan bayatıları yazmağı üstün tutdum. Məhz buna görə də möhtərəm prezident Almazbəy Atambəyov mənə Dövlətin ən yüksək "Manas" mükafatını verdi.

**– Əmir müəllim, yaradıcılığınız çoxşaxəlidir. Film yaradıcılğında nə kimi yenilikləriniz var?**

– 1999-cu ildə ssenari müəllifi və rejissoru olduğum "Bakı nefti və Nobellər" adlı 3 hissəli sənədli filminin növbəti seriyaları üzərində çalışıram. Çünki mənim əlimdə zəngin tarixi faktlar və arxiv materialları olduğundan həmin filmin 4 və 5-ci hissələrini tamamlamaq və efir məkanında tamaşaçılara yeni sürprizlər etmək niyyətindəyəm.

**Müsahibəni apardı: M.MİRZƏ, "Respublika".**

# ADA Universitetində mühəndislik və robot texnologiyası üzrə olimpiada keçirilib

**Aprelin 6-da ADA Universitetində "FIRST LEGO League" mühəndislik və robot texnologiyası üzrə olimpiada keçirilib.**

AZƏRTAC xəbər verir ki, 2018-2019-cu il mövsümü üzrə Təhsil Nazirliyi, ADA Universiteti və "Mars Academy" şirkətinin birgə təşkilatçılığı ilə keçirilən turnirin builki mövzusu kosmosa həsr olunub və "İnformasiya orbiti" adlanır.

Yerli turnir çərçivəsində 10-15 yaşlı məktəblilərdən ibarət 30 komanda "Əsas dəyərlər", "Robot dizaynı", "Layihə təqdimatı" və "Robot oyunu" adlı 4 kateqoriya üzrə bilik və bacarıqlarını nümayiş etdirib. Yarışın münsiflər heyəti Türkiyədən dəvət olunmuş beynəlxalq ekspertlərdən və ADA Universitetinin müəllimlərindən ibarət olub.

Mükafatlandırma mərasimində çıxış edən Təhsil Nazirliyinin şöbə müdiri Vasif Məmmədov son illər "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi istiqamətində məktəblərdə təhsil robotlarının tədrisə inteqrasiyasına xüsusi diqqət yetirildiyini bildirib. Qeyd edib ki, nazirlik tərəfindən son iki ildə 20 ümumtəhsil müəssisəsi təhsil robotları ilə təmin olunub. Məktəblərin informatika otaqlarına xüsusi olaraq "Lego Education" təhsil həllərinə uyğun tərtibat verilib, məktəb müəllimlərinə xüsusi sertifikatı olan xarici mütəxəssislər tərəfindən təlimlər keçirilib və şagirdlərimiz bu cür beynəlxalq robot texnologiyaları yarışlarına cəlb olunurlar.

Tədbirdə ADA Universitetinin İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutunun dekanı Araz Yusubov olimpiadaya hazırlıq prosesi və tərəfdaş qurumların fəaliyyəti haqqında məlumat verib. Qeyd edib ki, 1998-ci ildən etibarən Danimarkanın "Lego Education" və ABŞ-ın "First" şirkətlərinin birgə



layihəsi kimi təşkil olunan "FLL" turnirinin məqsədi uşaqların elm və texnologiyaya maraqlarını artırmaq və real problemlərinin həllinə töhfə verməkdir.

"Mars Academy"nin rəhbəri Elnarə Nəbiyeva rəhbərlik etdiyi şirkətin uşaqlar üçün robot texnologiyaları üzrə kurslar təşkil etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, təcrübə göstərir ki, tədrisdə təhsil robotlarından istifadə şagirdlərdə müstəqil qərar vermək, öz seçimləri üzərində düşünmək və həmyaşıdları ilə komanda şəklində işləyərək qabiliyyətlərini inkişaf etdirməyə şərait yaradır.

Sonda turnir iştirakçıları medal və sertifikatlar, müxtəlif kateqoriyalar üzrə qalib gələn komandalar isə kuboklarla təltif olunublar.

Çempion olan iki komanda mayın 22-dən 25-dək Türkiyənin İzmir şəhərində keçiriləcək Türkiyə Beynəlxalq Açıq Çempionatına vəsiqə qazanıb.

Qeyd edək ki, Azərbaycan hər il dünyanın 98 ölkəsindən 300 mindən çox məktəblinin cəlb olunduğu turnirə ilk dəfə 2017-2018-ci il mövsümündə qoşulub. Nəticədə yerli turnirdə qalib gələn komanda Azərbaycanı Estoniyada keçirilən Beynəlxalq Açıq Çempionatda təmsil edib.

Turnir hər il müxtəlif qlobal elmi və texnoloji problemlərə həsr olunur. Bu sıraya "Hidrodinamika - suyun səyahəti", "Heyvanların qorunması", "Okeanların qorunması", "Yaşlılara yardım", "Qlobal iqlim", "Dünya təhsili" və digər mövzular daxildir.

**AZƏRTAC**

# Suvarma suyu sarıdan heç bir çətinlik olmayacaq

Yurdumuza bahar gəlib. Torpaq oyanıb, təbiət al-əlvan rəngə bürünüb. Gözəlliklər kənddə yaşayan insanlara sevinc bəxş etdiyi kimi, onlarda yeni mövsümün əkin-biçin işlərini sürətləndirməyə ruh yüksəkliyi bəxş edir. Bu işlərin səmərəliliyi isə heç şübhəsiz ki, müəyyən amillərdən, aran yerində suvarma suyuna təminatdan çox asılıdır. Sabirabad rayonunun təcrübəli melioratorları əkinlərin su ilə təmin olunmasında texniki-təşkilati tədbirləri müvəffəqiyyətlə həyata keçirirlər. Son illərdə meliorativ tədbirlərlə əlaqədar genişhəcmli işlər görülmüşdür və bu tədbirlərin nəticələri sevindiricidir. İstifadəyə verilən "H" kanalı Moranlı, Əliləmbəyli, Sarxanbəyli və digər kəndlərin uzun illər boyu su həsrətinə son qoymuşdur. Keçən il ölkə başçısının xeyir-duası ilə işə düşən Arazın yeni qol kanalı min hektarlarla əkin dövriyyəsinə daxil edilən bərəkətli torpaqları suvarma suyu ilə təmin edəcəkdir. Əməkdaşımız Sabirabad rayonunda olmuş, rayon melioratorlarından yeni mövsümdə suvarma sahəsində həyata keçirilən tədbirlər barədə danışmağı xahiş etmişdir. **Sabirabad Suvarma Sistemləri İdarəsinin rəisi Şafiq Heydərov:**

- Cənab İlham Əliyevin aqrar sahənin inkişafına dair qarşıya qoyduğu tələbləri özümüzə fəaliyyət proqramı kimi qəbul edirik. Hər şeydən əvvəl onu deyim ki, yola saldığımız ildə rayonumuzun "ağ qızıl" ustaları suvarma suyu sarıdan korluq çəkmədilər. Optimal müddətdə tarlalar suvarma suyu ilə təmin olundu. Əkin aparılacaq sahələr vaxtında arata qoyuldu. Sabirabad rayonu iri kənd təsərrüfatı rayonudur. Təsərrüfatlarda pambıqla yanaşı taxıl, yonca, bostan-tərəvəz və başqa bitkilər becərilir. Həyətyanı sahələri, habelə örüş-otlaq sahələrini, çoxillik bitkiləri suvarma suyu ilə təmin edirik. Ümumiyyətlə, Sabirabad Suvarma Sistemləri İdarəsinin xidmət etdiyi ərazi 30.500 hektar həcmindədir. Kollektivimiz ərazini su ilə normal vəziyyətdə təmin etmək üçün bütün imkanlardan maksimum istifadə edir. Öhdəmizdə olan 1150 kilometrdən artıq suvarma kanalına, 1657 ədəd hidrotexniki qurğuya, 17 nasos stansiyasına, digər avadanlıqlara texniki xidmət göstəririk. İlin ilk aylarında 65,4 kilometr uzunluğunda suvarma kanalı lildən təmizlənmiş, 5 ədəd nasos stansiyası cari, 4-ü əsaslı təmir olunmuşdur. Qalaqayın, Xəlfəli, Məmişlər, Əhmədabad, Şəhriyar, Qaratəpə, Kürkəndi kəndlərində kanallar üzərində şlüzlər qurulmuşdur. Təşkilati-texniki tədbirlər cari ildə də davam etdirilir. Yeri gəlmişkən deyim ki, hazırda ölkənin ərzaq təhlükəsizliyində mühüm rol oynayan taxılın becərilməsi fermerlərin gündəlik qayğısıdır. Bu mövsümdə 23.339 hektar taxıl sahəsinə suvarma suyu verməliyik. İlin əvvəlindən bəri 10.705 hektar taxıl sahəsinə suvarma suyu vermişik. Bundan əlavə, 2801 hektar yonca, 4079 hektar həyətyanı, 394 hektar çoxillik bitki sahəıəri suvarma suyu ilə təmin olunmuşdur.

Fermerlər suvarma suyu sarıdan heç bir çətinliklə üzləşməyəcəklər.

**Alim Mürşüdov, Sabirabad Meliorasiya İdarəsinin rəisi:**

- Ölkədə aqrar sahənin inkişafına göstərilən qayğı və diqqət biz melioratorların məsuliyyətini birə beş artırır. Sabirabad rayonunun kənd ərazi nümayəndəliklərində keçirilən hesabat yığıncaqlarlnda, icra başçısının kənd əhalisi ilə keçirdiyi görüşlərdə fermerlərlə meliorasiya tədbirlərindən, bu tədbirlərin hansı keyfiyyətlə aparılması barədə fikir mübadiləsi olur, onların təklifləri, məsləhətləri nəzərə alınır. Ən maraqlı və vacib məsələlərdən biri pambıqçılıqda əkin sahələrinin dövriyyəsinin genişləndirilməsidir. Bu təklifi həyata keçirmək üçün cari ildə pambıq əkininə hazırlıqla əlaqədar ərazidə meliorasiya işləri görmüşük. Bu işlər yüksək məhsuldirlığa imkan yaradacaqdır.

Sabirabad Meliorasiya İdarəsi rayonumuzun 67,2 min hektar meliorasiya olunmuş ərazilərinə xidmət edir. İdarənin əsas vəzifəsi meliorativ tədbirləri mütəşəkkil həyata keçirmək, qrunt sularının ərazidən ziyansız uzaqlaşdırılmasını təmin etməkdir. Torpağın meliorativ vəziyyətini qoruyub saxlamağa çalışırıq. Bunun üçün idarənin balansında 3045 kilometr uzuluğunda kollektor-drenaj şəbəkəsi, 3244 ədəd müxtəlif hidrotexniki qurğular vardır. Əsas məqsəd balansda olan kollektor-drenaj şəbəkələrini və onların üzərindəki hidrotexniki qurğuları, drenaj suları ötürən nasos stansiyalarını daima işlək vəziyyətdə saxlamaqdır. Nasosların ümumi məhsuldarlığı saniyədə 4,45 kubmetrdir. Yanvar-fevral aylarında idarə üzrə 116,2 kilometr uzunluğnda kollektor-drenaj şəbəkəsi lildən təmizlənmiş, 20 ədəd hidrotexniki qurğu cari, 2 ədədi əsaslı təmir olunmuşdur. Texniki-təşkilati tədbirlər davam etdirilir.

**Tofiq HÜSEYN, "Respublika".**

# "Gənc Kəşfiyyatçılar Klubu"nun üzvləri AZƏRTAC-a ekskursiya ediblər

**"Sevimli Bala" uşaq mərkəzi və AZƏRTAC-ın Uşaq Bilik Portalının birgə təşkilatçılığı ilə "Gənc Kəşfiyyatçılar Klubu"nun üzvləri agentliyə ekskursiya ediblər.**

Ekskursiya zamanı uşaqlar AZƏRTAC-ın işi ilə tanış olublar. Onlara informasiyanın əldə edilməsi, hazırlanması və redaktə olunması haqqında məlumatlar verilib. Uşaqlar informasiyaların saxlandığı server otağı, rabitə, kitabxana və xarici dillərdə informasiya redaksiyası ilə tanış olublar.




Uşaqlar üçün informasiya bölməsində balacalara Bilik Portalının işi haqqında danışılıb. Agentlik tərəfindən onlar üçün yaradılan portalda müxtəlif cizgi filmləri, nağıllar, təbiət haqqında məlumatlar, tapmacalar və digər maraqlı materialların yerləşdirildiyi bildirilib. Eyni zamanda, burada uşaqların çəkdiyi rəsmlərin, yazdıqları şeir və hekayələrin də yayımlandığı diqqətə çatdırılıb.

Sonda uşaqlara hədiyyələr və Bilik Portalı haqqında bukletlər təqdim olunub.

**AZƏRTAC**

*Yeni nəşrlər*

# Qartal səmada tək uçur

Qələmini ədəbiyyatın bütün janrlarında sınayan, poetik ilhamla qələmə aldığı şeirlərində tarixi gerçəklikləri daim önə çəkən, poema və şeirlərini qəlbinin odu ilə yazan Fuad İslamoğlu oxucularının sevimlisinə çevrilmiş, el gözündə pillə-pillə ucalmışdır. O, yaradıcılığı ilə şəxsiyyəti bir-birini tamamlayan, sözü ilə əməli üst-üstə düşən şairlərdən biri olmaqla yanaşı, həm də səmimiyyəti, vətəndaş mövqeyi ilə seçilən bir ziyalı, xalq, millət fədaisidir. Onun yaradıcılığına diqqət yetirdikdə aydın olur ki, "yaxşı ad" Fuad İslamoğlu üçün sadəcə mənəvi-əxlaqi dəyər yox, həm də böyük bir həyat fəlsəfəsidir.

Ömrünün 74-cü baharını yaşayan Fuad İslamoğlu kiçik yaşlarından şeirə, sənətə böyük maraq göstərmiş, yaşıl otlar döşəyi, sal daşlar yastığı olmuş, vurğunu olduğu təbiət, onun əsrarəngiz gözəlliyi qəlbində misralara və müxtəlif səpkili şeirlərə çevrilmişdir.

Fuad İsmayıloğlu Neft-kimya Akademiyasının məzunudur. Ayrı-ayrı illərdə rəhbər vəzifələrdə çalışmış, müxtəlif mükafatlara layiq görülmüş, Vətən qarşısında böyük xidmətləri olmuşdur.

Şairin imzası dövri mətbuatdan oxuculara yaxşı tanışdır. İndiyə kimi onun "Təmizlik", "Yaşamalı dünyadı", "Bu səs sənin səsindirmi?" kitabları işıq üzü görmüşdür.

"Qartal səmada tək uçur" Fuad İslamoğlunun oxucularla kitab halında dördüncü görüşüdür. Kitaba şairin müxtəlif illərdə qələmə aldığı şeirləri, təmsilləri daxil edilmişdir.

Fuad İslamoğluna görə Vətən sevgisi bütün sevgilərin əzəli və əbədisidir. Bütün şeirləri bu sevgidən mayalanır və pərvazlanır:

*Qeyrətin ellərə bəlli,*
*Varlığın bizə təsəlli,*
*Tutmalıyıq ikiəlli,*
*Səni, ay Vətənim mənim.*

Onu əhatə edən nə varsa, bir sevgi, bir saygı ilə yanaşan şair "Qartal səmada tək uçur" şeirlər kitabında hamını müstəqil, bir gənc dövlət üçün əlindən gələni əsirgəməməyə çağırır:

*Bir gül açıb mini də açsa,*
*hələ yaz deyil,*
*Günün nə qara deyil,*
*nə də bəyaz deyil,*
*Ömrün abad, nə də ki,*
*kökdən düşmüş saz deyil,*
*Heç nəyi əsirgəmə,*
*bu gənc dövlət üçün.*

"Qartal samada tək uçur" şeirlər kitabının ilk fəslində "Mən kiməm bəxt yazam", "Bunları mən görmüşəm", "Şair yükü ağır olur", "Heç kəs poza bilmədi", "Bu yolun yolçusuyam" və digər şeirlər oxunaqlığı ilə diqqəti cəlb edir.




Şairin "Seçə biləydim" şeiri ilhamla qələmə alınmışdır:

*Qardaş, bu yaşda da seçə bilmirəm,*
*Nə yaxşı insanı, nə pis insanı.*
*Yuxudan o zaman ayılıram ki,*
*İtirirəm qazandığım ad-sanı.*

*Fərq qoymadım nə doğmaya, nə yada?*
*Hər kəs üçün atdım özümü oda,*
*Bu minvalla ömrümü verdim bada,*
*Kimsə tutub duracaq ki, dünyanı?*

"Qartal samada tək uçur" şeirlər kitabındakı təmsillər bir-birindən maraqlıdır.

Bu təmsilləri oxuduqca oxuyursan.

Fuad İslamoğlu ilhamla qələmə aldığı şeirlərində bütöv Azərbaycanı, türkçülüyü özündə, sözündə, yaradıcılığında yaşayır və andırır.

Kitabdakı şeirləri oxuduqca belə qənaətə gəlmək olur ki, Fuad İslamoğlu professional səviyyədə yaradıcılıqla məşğuldur, bir sözlə, onun yaradıcılığı açılmamış bir xəzinədir. Bir çox şeirlərini Vətən, yurd həsrəti ilə qələmə alıb. O, fəlsəfi fikirlərini şeirin müxtəlif janrlarında oxuculara çatdırmaqla həm də poeziyamızın inkişafına xidmət edir.

Vurğulamaq lazımdır ki, Fuad İslamoğlunun qələmə aldığı şeirləri xalq yaradıcılığından bəhrələnib, onun yaradıcılığında geniş yer tutan təbiət və insan gözəlliyi qələm sahibinin ilham qaynağıdır. Al-əlvan boyalarla söz çələngi quraraq həm təbiət gözəlliklərini, həm də insan gözəlliklərini tərənnüm edir. Şair insanı təbiətdən ayırmır, əksinə, onları bir vəhdət kimi görür, duyur və tərənnüm edir.

Bu gün Sumqayıt şəhərində, mavi Xəzərin nəğməli, romantik sahillərində yaşayan, mehrini təbiətin gözəlliklərini seyr etməyə salan şair Fuad İslamoğlu tükənməz qüvvə ilə yaradıcılığına davam etdirir, oxunaqlı şeirlər yazır, rəngarəng mövzulara toxunur...

**Qədir ASLAN, "Respublika .**

# MÜASİR QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏDƏNİYYƏT VƏ DİN



Müasir planetimiz qloballaşma şəraitində öz miqyasını və təsir gücünü artıran, dinamik inkişaf edən dar, məhdud empirik idrak çərçivəsindən daha geniş, əhatəli, eyni zamanda çox ziddiyyətli, həm də hərtərəfli və dərin nəzəri ümumiləşdirmələrə doğru gedən böyük dəyişikliklər və elmi nailiyyətlər dünyasıdır. Bu gün qloballaşma cəmiyyətdə elə problemlər yaratmışdır ki, onlardan danışmamaq qeyri-mümkündür. Bu proses müasir sosial-mənəvi tərəqqinin mühüm sahəsi olan mədəniyyət və sivilizasiyalarla bilavasitə bağlıdır. Bu cəhətdən mədəniyyət bir tərəfdən şəxsiyyətin yaradıcılıq fəaliyyəti, digər tərəfdən isə bu prosesin fəaliyyət üsulu və nəticəsi kimi təzahür edir. Ümumilikdə isə mədəniyyətə şəxsiyyətin mövcudluğunun meyarı, onun özünüdərki və təsdiqi kimi baxılmalıdır. Şəxsiyyətin özünün reallaşması və dərki ilk əvvəl onun şüur səviyyəsi, həyatın mənası haqqında inamı və təsəvvürü, ümumi mədəniyyəti, əxlaqı, ləyaqəti, bir sözlə şəxsiyyətin mənəvi dünyasını səciyyələndirən bütün keyfiyyətlərlə şərtlənir. Hər bir fərd özünün daim inkişaf edən sosial-mənəvi keyfiyyətlərinin mürəkkəb və açıq sistemi kimi çıxış edir və formalaşır. Bununla şəxsiyyətin sosial-mənəvi yetkinliyi onun hissi-emosional və məntiqi təfəkkür mədəniyyətinin səviyyəsi ilə təsdiqlənir və müəyyən edilir. Məhz respublikamızın müstəqillik qazandığı indiki dövrdə insan problemi, onun mənəvi aləmi, mədəniyyəti, təhsili və tərbiyəsi, onun cəmiyyətimiz üçün faydalı bir şəxsiyyət kimi formalaşması məsələləri ön sıraya keçir və xüsusi əhəmiyyət kəsb edir. Son illərdə milli dövlətçiliyimizin möhkəmlənməsi, onun beynəlxalq nüfuzunun artması ilə əlaqədar olaraq cəmiyyətimizin mənəvi saflığı, bəşəri-mənəvi dəyərlərin daha da inkişafı sahəsində xeyli irəliləmələr baş vermiş, təhsil və tərbiyə, mənəviyyat məsələləri mədəni tərəqqinin aparıcı amillərindən birinə çevrilmişdir. Mənəviyyat insan zehniyyatının bütövlüyü və daxili saflığının, eyni zamanda onun mənəvi təhlükəsizliyinin parlaq aynasıdır.

Heydər Əliyev müstəqil Azərbaycan gənclərinin I forumunun ildönümü münasibətilə çıxış edəkən demişdir: “Gənclər xalqımızın milli ənənələri, milli, mənəvi dəyərləri əsasında tərbiyələnməlidir. Gənclərin tərbiyə edilməsində, təhsilində, eyni zamanda ümumbəşəri dəyərlərdən geniş istifadə olunmalıdır. Milli, mənəvi, ümumbəşəri dəyərlərin hamısı birlikdə bütün vətəndaşların və xüsusən gənclərimizin mənəvi kodeksini təşkil etməlidir”.

Milli-mənəvi dəyərlər sistemində islami dəyərlərin əhəmiyyəti və təsiri də mühümdür, bütövlükdə cəmiyyətin, ayrılıqda isə insanın mənəvi təkamülündə xüsusi rol oynamışdır. Şəxsiyyət, söz azadlığı, insan və onun ləyaqətinə ehtiram, millətin mənlik şüurunun oyanması, onun öz kökünə qayıtması və özünü dərk etməsi, dini dəyərlərə yeni münasibət yaranması məhz son illərdə geniş miqyas almış sosial-mədəni tərəqqinin nəticəsidir. Bütün bunlar onu göstərir ki, xalqımızın mənəvi dünyasının ayrılmaz hissəsinə çevrilən islam dininin əhəmiyyəti, nüfuzu indiki dövrdə son dərəcə artır və genişlənir, millətin mənəvi dirçəlişində, möhkəm birliyinin yaranmasında islam zehniyyəti xüsusi rol oynayır. Məhz bu baxımdan indiki dövrdə din və mədəniyyətin, xüsusilə islam mədəniyyətinin olduğu kimi obyektiv olaraq öyrənilməsi, milli-mənəvi dəyərlər sistemində islamın oynadığı mühüm rol, mədəniyyətlərarası dialoq böyük əhəmiyyət kəsb edir.

Bəşəri fikir dünyasında və tərəqqisində, mürəkkəb ziddiyyətli insan mənəviyyatında bütün dövlətlərin millət və xalqlarının səyi və fəaliyyəti nəticəsində yaranmış mədəniyyət və sivilizasiyalar da mühüm rol oynamışdır. Bu tərəqqi eyni zamanda bəşəriyyətin sosial-mədəni həyatının, onun inkişafının bütün sahələrini əhatə edir. Bu mənada mədəni tərəqqi boş və zəminsiz olmayıb özünəməxsus mənbələri, ilkin maddi və mənəvi əsasları zəminində yaranmışdır. Ümumiyyətlə, mənəviyyat, onun inkişafı ayrı-ayrı dövrlərə xas olan mədəniyyət və sivilizasiyalarda öz təcəssümünü tapmışdır.

Məlumdur ki, tarixi tərəqqinin ayrı-ayrı dövrlərində bu dövrlərin tələblərinə, inkişaf xüsusiyyətlərinə uyğun olaraq sivilizasiyaların yaranması, inkişafı, süqutu baş vermişdir. Toynbi sivilizasiyalardan, onun inkişafından bəhs edərkən müxtəlif tarixi köklü, ideya əsaslı və dini-siyasi meyilli dünyabaxışları və sivilizasiyalardan, onların əməkdaşlığı və dialoqundan danışmışdır.

Bu sivilizasiyalar onlar arasında yaranan fərqlərlə deyil, əsasən onların oxşar cəhətləri ilə şərtlənmişdir. Doktor M.Xatəmi özünün “İslam, dialoq və vətəndaş cəmiyyəti” adlı əsərində “sivilizasiyaların toqquşması” ideyasına qarşı çıxaraq Qərbin Şərq ölkələrinə qarşı apardığı müharibələri pisləyir, sivilizasiyalar, dinlər və xalqlararası dialoqa haqq qazandırır. Onun fikrincə sivilizasiyaların dialoqu xalqların və dövlətlərin bərabərliyi deməkdir, dialoq o vaxt mümkün olur ki, onun hər bir iştirakçısı biri-birinə humanistcəsinə və bərabərhüquqlu mövqedən yanaşır. Kant yazırdı ki, insan əqlini maraqlandıran məsələlər nə bir əsrin, nə də bir millətin həll edə biləcəyi məsələlər deyil, bəşəriyyətin inkişafı ilə bağlı məsələlərdir. C.Nehru özünün “Dünya tarixinə nəzər” kitabında yazırdı ki, dünya sivilizasiyasının inkişafında Asiyanın rolunu danmaq ədalətsizlik olardı. Çünki Avropa millətlərinin çoxu öz mənşəyini Asiya xalqlarından götürmüş, onların hesabına mədəniləşmişlər. Avropanın bir çox görkəmli mütəfəkkirləri İslam Şərqində yaranan zəngin mədəniyyətdən və onun Avropa mədəniyyətinə təsirindən danışmış və onu yüksək qiymətləndirmişlər. Orta əsrlərdə İslam Şərqində mədəniyyətin Avropaya nisbətən irəlidə olması və onun güclü təsir göstərməsi məsələsi S.Simonun, Fixtenin, Monteskyönin, Kompanellanın və digər görkəmli mütəfəkkirlərin əsərlərində hərtərəfli öz əksini tapmışdır. Bu bir daha onu göstərir ki, orta əsrlərdə Şərq xalqlarının mədəniyyətə verdikləri dəyərlər əvəzsizdir. Ərəb-müsəlman mədəniyyəti dövrünün ən yüksək mədəniyyətidir.

Min illər əvvəl də lokal sivilizasiyalar arasında sosial-iqtisadi, mədəni əlaqələr mövcud olmuşdur. Bu baxımdan, bəşəriyyətin inkişafının tarixi bütövlüyü, qloballaşmanın əslində xeyli əvvələ malik olması özünün daha aydın təsdiqini tapır. XX əsrin sonlarında bəşər həyatının və inkişafının vahid məkanda bütövləşməsi qloballaşma prosesinə tamamilə yeni cizgilər və meyillər gətirdi. Meydana gələn yeni münasibətlər qloballaşmanın miqyas və sərhədlərinin genişlənməsi zərurətini qarşıya qoyur. Bununla qloballaşma dövlətlər, xalqlar, millətlər, müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni imkanlar açır. Bu isə öz növbəsində müasir dövrdə bütün bəşəriyyətin iqtisadi, mədəni və digər əlaqələrin, qarşılıqlı münasibətlərin vahid ümumplanetar bir sistemə daxil olduğunu göstərir. Lakin bu da bir reallıqdır ki, ingilis etnoqrafı və tarixçisi E.Teylorun göstərdiyi kimi, sosial-mədəni dəyərlər, ümumiyyətlə, mədəniyyət yalnız ümumbəşəri olmayıb, özündə ayrı-ayrı xalqlar üçün spesifik olan cəhətləri və xüsusiyyətləri də birləşdirir. Lakin tarix və mədəniyyətlərin inkişaf təcrübəsi göstərir ki, mədəniyyət bütövlükdə bəşəriyyətin mütərəqqi inkişaf tarixidir. Mədəniyyət qloballaşan dünyamızda insanların milli-mənəvi varlığının qorunması və inkişafını müəyyən edən mühüm hadisə kimi çıxış edir. Yeni dövrdən başlayaraq beynəlxalq əlaqələr inkişaf etdikdə və bütün mədəni xalqları əhatə etdikdə mədəniyyətlərarası əlaqələr ümumdünya xarakteri daşıyır, beynəlxalq ünsiyyət formalarından birinə çevrilir. Bu proses fasiləsiz inkişaf edərək yeni mərhələyə - mədəniyyətlərarası inteqrasiya mərhələsinə daxil olur. Artıq bu proses geniş miqyas almaqdadır. Müasir qloballaşma dövründə ümumbəşəri dəyərlər universal mənəvi sərvətlərə çevrilmişdir. Cəmiyyətin mədəni yeniləşməsi, humanist ideyaların və prinsiplərin möhkəmlənməsi, ancaq milli mədəniyyətlərin inkişaf meylinin ümumbəşəri mədəni dəyərlərlə vəhdəti sayəsində mümkündür. Bu mənada dünya mədəniyyətinə inteqrasiya olunan milli mədəniyyətlər - elmi, mədəni, əxlaqi, fəlsəfi, ədəbi-bədii və digər sahələr yalnız milli məzmun kəsb etmir, həm də ümumbəşəri yönümü ilə fərqlənir. Ümumdünya mədəniyyəti əslində, bütün dünya xalqlarının mədəni inkişafının yekunu, onların yaratdığı nailiyyətlərin və dəyərlərin məcmusudur.

Mədəniyyətlərin əməkdaşlığı, dialoqu və qloballaşmasından söhbət gedəndə, birinci növbədə, beynəlxalq məzmunlu, eyni zamanda rəngarəngliyi ilə fərqlənən, bənzərsiz və təkrarolunmaz milli mədəniyyətləri özündə birləşdirən mədəniyyəti nəzərdə tutmaq lazımdır. Qloballaşma prosesində ən müxtəlif irq, mədəniyyət, etnik qrup və dinlərin ünsiyyəti, dialoqu getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Dünyada elə bir mədəniyyət yoxdur ki, etnik, milli və bəşəri aspektləri özündə birləşdirməsin. Lakin mədəniyyətlərin inkişafı və onlar arasında qarşılıqlı münasibətlər spesifik qanunauyğunluqlara malik çox mürəkkəb və ziddiyyətli prosesdir. Hər bir mədəniyyət öz milli, vahid etnomədəni xüsusiyyətləri ilə fərqlənsə də onların hamısı üçün ümumi cəhətlər xarakterikdir. Məhz müasir dünyanın səciyyəvi cəhətlərindən biri dünyanın müxtəlif xalqları arasında əlaqələrin sürətlə genişlənməsi, müxtəlif sivilizasiyaların bir-birinə yaxınlaşması və bu sivilizasiyaların bütün bəşəriyyətə xas olan ümumi ideya və ideallların xüsusi çəkisinin artmasıdır. Müasir dünyada gedən geosiyasi və etnomədəni proseslər qarşılıqlı anlaşma və faydalılıq əsasında vahid məkan yaradılmasını zəruri edir. Bu, Şərq ilə Qərb arasında irqi, dini və s. fərqləri arxa plana keçirir, sivilizasiyalararası dialoqu möhkəmləndirir. Yeri gəlmişkən, bunu da qeyd edək ki, onlar arasında ziddiyyət və qarşıdurma halları da az olmamışdır.

Lakin bu gün biz artıq onlar arasında mədəni əməkdaşlığı kortəbii proses kimi deyil, əksinə qarşılıqlı anlaşmanın obyektiv və məqsədəuyğun bir proses olduğunu görürük. Əməkdaşlıq və dialoq artıq qarşısıalınmaz, qanunauyğun bir proses kimi dövrün tələbidir. Eyni məkanda müxtəlif dinlərin birgə mövcudluğu və əməkdaşlığı onların hər birinin hüququnun etiraf edilməsi deməkdir. Əks dinlərə etiqad edənlərə dözümlü münasibət onların bir-birinə marağını artırır. Müxtəlif dinlərin bir-birinə marağı və diqqət yetirməsi, bir-birindən nə isə götürməsi, dini mədəniyyətlərin qarşılıqlı təsiri və əməkdaşlığına gətirib çıxarır. Bu bir reallıqdır ki, islam-xristianlıq münasibətləri qarşılıqlı ziddiyyət və anlaşılmazlıqlardan qarşılıqlı anlaşmaya qədər uzun bir yol keçmişdir. Məhz bu baxımdan, mədəniyyətlərin, dinlərin qarşıdurması deyil, onların davamlı dialoqu, fəal əməkdaşlığı olduqca vacibdir. Dinlərarası dialoq, onun gedişi və müasir vəziyyəti sosial-mənəvi tərəqqinin fərqli mərhələləri ilə bağlı olsa da, vahid ümumi prosesin, onun inkişafının ümumi meylini təşkil edir. Müasir qloballaşma prosesi cəmiyyətdə elə problemlər yaratmışdır ki, onlara laqeyd olmaq, diqqət yetirməmək mümkün deyil.

Qloballaşan dünyamızın mahiyyətindən doğan və onu əks etdirən sosial-mədəni təkamül məhz çağdaş dönəmdə sivilizasiyalararası əməkdaşlığın qlobal strategiyası baxımından xüsusi əhəmiyyət kəsb edir. Sivilizasiyalararası konsepsiyanın işlənib hazırlanması müasir reallığın ən aktual məsələlərindən biridir. Çünki söhbət ümumbəşəri mövcudluq və dünya inkişafının yeni, müasir anlamından gedir. Bu isə, eyni zamanda, bəzi tədqiqatçıların iddia etdikləri kimi, heç də mədəniyyətlərin toqquşması kimi deyil, əksinə sivilizasiyaların paralel mövcudluğu və inkişafı, onların əməkdaşlığı üçün optimal şəraitin yaradılması və təmin olunması deməkdir. Bakıda keçirilmiş II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərkən bu məsələ ilə əlaqədar olaraq demişdir: “Biz hamımız istəyirik ki, dünyada dinlərarası, mədəniyyətlərarası münasibətlər sağlam zəmində həllini tapsın, əməkdaşlıq meyilləri güclənsin, xoşagəlməz halların qarşısı alınsın, ümumiyyətlə, dünyada sivilizasiyalararası dialoqun inkişafında müsbət meyillər üstünlük təşkil etsin”. Yeri gəlmişkən qeyd edək ki, bu meyillər artıq öz müsbət bəhrəsini verməkdədir.

Mədəniyyətlərarası dialoqla yanaşı, dinlərarası əməkdaşlıq və dialoqda da islam dininin xüsusi yeri və rolu vardır. İslam geniş və əhatəli dünyagörüşü olmaqla həyatın bütün sahələrində, o cümlədən qlobal təbiət və cəmiyyət hadisələrinə münasibətdə digər dinlər arasında xüsusilə fərqlənir. Onun başlıca qaynaqlarında qlobal hadisələrə özünəməxsus münasibət müəyyən əxlaqi prinsiplər və dəyərlər üzərində qurulmuşdur. Qlobal təbiət və cəmiyyət hadisələri, onların baş verməsi və qarşısının alınması yolları haqda Quranda, hədislərdə, ilahiyyatçı müsəlman alimlərin əsərlərində bir sıra faydalı fikirlər vardır. Quranda ekoloji və sosial fəlakətlərin baş verməsinin səbəbləri bizim vərdiş etdiyimiz müasir elmi əsaslarla deyil, Quranın nazil edildiyi ictimai və mədəni şəraitə uyğun olaraq əks olunmuşdur.

Dözümlülük, xeyirxahlıq, tolerantlıq islamın əsasını təşkil edir. Tolerantlıq islamın ümumi prinsip və təlimi ilə səslənən mənəvi anlaşmadır. İslama görə tolerantlıq müxtəlif inanclı insanlar arasında bir körpüdür. Allah buyurur: “Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq”. Qurani-Kərimdə deyilir: “Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inandıq”.

Quran müsəlmanların təkcə müqəddəs kitabı deyil, həm də islam mədəniyyətinin ən qiymətli abidəsi, müsəlmanların inam və iman mənbəyidir. Quran müsəlmanlığın dini-fəlsəfi, mənəvi-etik baxışlar sistemidir. Ümumbəşəri dəyərləri ifadə edən bir sıra fikir və ideyalar dini forma və normalarda əks olunmuşdur. Məhz buna görə də müqəddəs kitablara malik dinlərə hörmətlə yanaşılması ta qədim zamanlardan mövcud olmuşdur. İnsan nəslinin birliyi ideyası tarixilik baxımından ilk dəfə olaraq məhz din tərəfindən ilahi-mifoloji formada əks edilmişdir.

İslam dini azadfikirlilik və humanizm, sülh və əmin-amanlıq dinidir. Müxtəlif xristian və yəhudi icmaları islam dünyasında öz dünyalarını yaratmışlar. İslam dünyasında başqa dindən olanlara peşə və yaşam fərqləri yoxdur. Buna əyani misal olaraq IX əsrdə Xilafətin paytaxtı olan Bağdadda xristian icmasının başında saray həkimi olan xristian dururdu. Yəhudi icmasının başında isə saray bankiri yəhudi dururdu. Adam Mets yazırdı: “Müsəlman imperiyasında adamı ən çox mat qoyan başqalarından olan məmurların çoxluğudur. Müsəlmanlar, hətta bu məmurlara tabe olurdular, din bir növ müxtəlif əqidəli insanları birləşdirən, barışdıran mənəviyyatdır”. Ümumiyyətlə, din milli-mənəvi dəyərlər sistemidir. Dünya dinləri öz aralarındakı fərqə baxmayaraq bir məsələdə yekdildir ki, hamısı fikrən dünyanı ikiləşdirir. Biri bizim yaşadığımız real dünya, ikincisi insanın can atdığı ruhani dünya. Lakin onların hamısının əsasını tək Allaha inam və etiqad təşkil edir. Ruhani dünya hər şeyin hər şeydə ilahi harmoniyasının təcəssümüdür. Dində əsas məqsəd insan ruhunun xilas edilməsinin təmin edilməsidir. Sosial-mədəni tərəqqidə din fəlsəfəyə nisbətən daha mürəkkəb və daha rəngarəng mənəvi hadisədir. O, insanların mənəvi-etik, hissi-emosional həyatına daxil olaraq onları daha da zənginləşdirir. Bir növ onlara yaşam və mənəvi oyanma stimulu verir.

Din mədəniyyətin, mədəni tərəqqinin mühüm tərəflərindən biri olmaqla yanaşı, həm də ictimai şüurun gerçəkliyi özünə xas olan spesifik şəkildə dərk etmək vasitəsidir. İnsanlığın ilkin dövrlərində, hətta sonralar da dini etiqad və təsəvvürlər sadəlövh şəkildə olsa da dünyanın qavranılması, dərk edilməsi işinə xidmət etmiş, onu maraqlandıran suallara cavab axtarmışdır. Lakin uzun müddət elm və din qarşı-qarşıya qoyulmuş, o, gerçəkliyin sırf təhrif olunmuş, xəyali inikası hesab edilmişdir. Cəmiyyətin sosial-mənəvi inkişaf tarixi və təcrübəsi göstərir ki, din heç vaxt yuxarıda deyildiyi kimi, gerçəkliyin xalis, sırf xəyali inikası olmamış, o öz fəaliyyətində daim yerüstü real qüvvələrə əsaslanmışdır. Onun mövcudluğu müəyyən qədər də bununla bağlıdır. Həmçinin din dünyaya, insana münasibətdə öz baxışlarını verərkən onun real səslənməsi üçün çox məharətlə bədii obrazlı vasitələrdən istifadə etməklə Allaha inam və etiqadlarında güclü hiss-həyəcana səbəb olan yüksək emosionallıq yarada bilmişdir.

Dinin mədəniyyət sistemində oynadığı roldan fərqli olaraq onun elmə, biliyə münasibəti daha gərgin olmuşdur. Dünya, varlıq məsələlərinə münasibətdə onlar arasında mübahisələr həmişə olmuşdur. Bunlar indi də bu və ya başqa formada özünü göstərir. Dinlə elmin müəyyən məqamlarda və məsələlərdə birgə çıxış etməsini heç də dinlə elm arasında əksliyin aradan qalxması kimi başa düşmək düzgün olmaz. Bu əkslik müxtəlif formalarda və səviyyələrdə indi də davam edir. Din belə bir mövqedən çıxış edir ki, elm guya insanların əsasən sadə olan maddi tələblərini, daha mürəkkəb olan mənəviyyatı isə ancaq ilahiyyat ödəyə bilər. Bəzi din xadimləri belə bir müddəanı əsaslandırmağa çalışırlar ki, əgər insanlar Allahı yaddan çıxararaq öz həyatını elmə və texniki tərəqqiyə uyğun olaraq qursalar, müasir mədəniyyət köklü surətdə zəifləyər, elmi cəmiyyətə əks olan bir qüvvəyə çevirə bilər. İlahiyyatçılar bəzən iddia edirlər ki, ateizm maddi nemətlərə çatmaqda insanlara kömək etdiyi halda, mənəvi amillərin, bəşəri sərvətlərin rolunu inkar edir, insanları narahat edən müasir məsələlərin həll edilməsinə cavab verə bilmir. Onlar bu məsələləri həll etməyin ən universal metodu kimi ilahi etiqadı, Allaha müraciətin zəruriliyini irəli sürürlər. Lakin ilahiyyatçıların hamısı belə düşünmür, bəziləri sağlam düşüncəni yüksək qiymətləndirir, elmi-texniki tərəqqinin qanunauyğun olduğunu etiraf edirlər.

Son illərdə ölkəmizdə çoxlu məscidlər, ibadət evləri tikilib istifadəyə verilmişdir. İslam dininə, onun mənəvi dəyərlərinə, görkəmli din xadimlərinin həyat və fəaliyyətinə aid çoxlu ədəbiyyat buraxılmış, bu sahədə təşkil edilən radio və televiziya verilişləri əhalidə, xüsusi ilə gənclərdə böyük maraq oyatmışdır. Heydər Əliyev islamın mənəvi dəyərlərindən, onun əhəmiyyətindən danışarkən demişdir: “Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilmişdir... Bu bizim üçün böyük bir hadisədir və biz bunu yüksək qiymətləndiririk. Xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi islamın bu yüksək mənəvi dəyərləri əsasında yaşatmalı, tərbiyə etməliyik”.

Xalqımızın soykökünə qayıtması, islam dininə, onun mənəvi, əxlaqi dəyərlərinə marağın getdikcə artması, heç şübhəsiz, ölkəmizdə demokratiyanın inkişafı üçün daha əlverişli şərait yaradılmasından, xalqımızın öz milli adət-ənənələrini qoruyub saxlamaq ehtiyacından, Konstitusiyamızın vicdan azadlığı haqqındakı tələb və müddəalarına əməl edilməsi zərurətindən irəli gəlir. Son vaxtlar dövlətimizin dini icmalar və qurumlar haqqında qəbul etdiyi qanun və sərəncamlar da bununla bağlıdır. Ölkəmizdə fəaliyyət göstərən bu ibadət yerlərinə xalqımız müqəddəs bir məkan kimi baxır, öz dini adət və ənənələrini heç bir maneəyə rast gəlmədən burada azad və rahat icra edirlər. Lakin qeyd edək ki, bu məscidlərin bir çoxu elmi-dini nəzarətsizlik üzündən radikal islam təməlçilərinin, xarici missionerlərin nəzarətinə keçir, çox hallarda milli mənəviyyatımıza tamamilə zidd olan təbliğat aparılır. Təbiidir ki, bu yerlərə gənclərimiz də çox cəlb edilir, radikal islamçılar xüsusi fəallıq göstərməklə yaradılan şəraitdən suiistifadə edərək siyasətə qarışır, dövlətimiz əleyhinə təxribatla məşğul olurlar. Onlar xüsusilə gənclər arasında fəaliyyətlərini daha da genişləndirərək müxtəlif yollarla ideyaca bərkiməmiş kövrək gənclərimizi caynaqlarına keçirərək öz doğru dinlərindən imtina etməyə, yad dinləri və məzhəbləri, təriqətləri qəbul etməyə nail olurlar. Narahatlıq yaradan hallardan biri də odur ki, respublikamızın bəzi rayonlarında radikal dini təməlçilərinin fəaliyyəti və təbliğatı getdikcə geniş miqyas alır. Çoxlu kurslar, birliklər, mədrəsələr açılıb gəncləri özünə cəlb edir, milli-mənəvi dəyərlərimizə, adət-ənənələrimizə zidd işlər görülür. Həmin bölgənin qabaqcıl ziyalıları, fəalları bu cür xoşagəlməz hallara laqeyd qalmamalı, belə halların qarşısını almaq üçün söhbətlər, geniş izahat işləri aparmalıdırlar. Təəssüf doğuran həm də odur ki, orta təhsil müəssisələrində dini dərslərin tədris olunmasını tələb edənlərə də təsadüf edilir ki, onlar heç bir əsas olmadan öz fikirlərini müxtəlif yollarla sübut etməyə çalışırlar. Ümumiyyətlə, respublikamızda son dövrlərdə dinə aludəçilik meyli xeyli artmışdır, bu, kütlələrin xeyli hissəsini əhatə edir. Artmaqda və getdikcə genişlənməkdə olan dini radikalizm təbliğatı isə bəzən milli mənəviyyatımızı, onun dayaqlarını, elm və təhsili üstələyir, müasir elmi nailiyyətlərə və kəşflərə yanlış məzmun verərək onların əsl mahiyyətini və əhəmiyyətini təhrif edərək birtərəfli qaydada ideallaşdırıb şişirdirlər. Bu isə öz növbəsində müasir nailiyyətlərimizə, sağlam mənəvi dəyərlərimizə kölgə salır, onların gənclərimizin tərbiyəsində, elmi biliklərə yiyələnməsində rolu və əhəmiyyəti azaldılır. Respublikamızda mövcud olan bu qeyri-real dini meyilləri aradan qaldırmaq üçün əhali, xüsusən gənclər arasında müntəzəm olaraq ideya-tərbiyə işi aparılmalıdır. Ancaq bu halda mürəkkəb ideya-tərbiyə işində müəyyən müsbət nəticələr əldə etmək olar. Bununla əlaqədar A.A.Bakıxanovu xatırlayaq: “Elm və tərbiyə daşda nəqş salmaq kimi çətindir”. Azərbaycan xalqının görkəmli filosofu M.F.Axundov Bakıxanovun bu obrazlı təşbehini çox yüksək qiymətləndirərək cəhalətə və mövhumata qarşı üsyan qaldıraraq gənclərimizin biliyə, elmə, mədəniyyətə yiyələnməsinin əhəmiyyətini dönə-dönə qeyd edirdi.

Mənəviyyatımızla bağlı bir mühüm məsələ də az əhəmiyyət kəsb etməyən vicdan azadlığı haqqında Konstitusiyamızın müddəasıdır. Dindarlar Konstitusiyamızın bu tələblərindən istifadə edərək öz dini ehtiyaclarını ödəyir, bu sahədə ölkəmizdə demokratiyanın verdiyi bütün imkanlarından faydalanaraq öz hüquq və azadlıqlarını həyata keçirirlər. Lakin dinə inanmayanlara, ateistlərə, ona müxalif düşünənlərə münasibət tamam başqadır. Tam əsasla demək olar ki, bu dünyagörüşü geniş elmi-tədqiqat sahəsidir. Unutmayaq ki, ateizm cəmiyyətin sosial-mənəvi və elmi-nəzəri təkamülü ilə sıx əlaqədə bəşər fikrinin çoxəsrlik inkişafı prosesində meydana gələrək xüsusi dünyagörüşü və mənəviyyat normasına çevrilərək sosial-tarixin və bütövlükdə dünya mədəniyyətinin ayrılmaz hissəsi, onun mənəviyyatında ideoloji istiqamətlərdən biri olmuşdur. Ateizim dinin, Allahın sadəcə inkarı olmayıb, hazırda elmi bilik və baxışların, əxlaqi-etik təlimlər sisteminin ayrılmaz bir ünsürü, müvafiq elmi biliklərin bilavasitə təsdiqi və məzmunu kimi çıxış edir. Bu da bir reallıqdır ki, ateizm müasir məzmun alanadək dinə müxalif olan müxtəlif ideoloji formalarda - skeptisizm, deizm, panteizm formalarında təhazür etmişdir.

Lakin bu da bir zərurətdir ki, artıq ateizm anlamına yeni təfəkkür baxımından, müasir sosial-mənəvi tərəqqinin, elmi fikrin tələbləri baxımından yanaşmaq lazımdır. Ateizm, şübhəsiz, keçmiş Sovet dövründə əsaslı deformasiyaya uğramış, yuxarıda qeyd etdiyimiz kimi, o əsasən qeyri-əxlaqi, mənəviyyata zidd bir hala salınmışdır. Onu zərərli meyillərdən, birtərəfli baxışlardan və utilitar təsəvvürlərdən azad etmək lazımdır. Bu isə o deməkdir ki, min illər ərzində insan mənəviyyatının ayrılmaz bir hissəsinə çevrilən ateizmə daha çevik, dinamik və humanitar xarakter verilməlidir.

İnsan mənəviyyatı mürəkkəb, kompleks zehni ünsürlərin vahid məcmusundan ibarət olduğuna görə insan psixikasında da bu proses hamar yolla getmir. Burada bir-birinə əks iki qütb - elmi-real və ona əks olan qeyri-real düşüncə tərzi mövcuddur. Mənəvi təkamülün məhz bu iki meyli, istiqaməti obyektiv reallığın öz məzmunundan irəli gələn dövrün qanunauyğunluğudur. Ona görə də bütün mülahizələr həm elmi gerçəkliyə uyğun olmalı, həm də insanların milli-mənəvi tərbiyəsində, maariflənməsində onlara kömək etməlidir.

**Əlipaşa ƏLİYEV,**
**fəlsəfə üzrə elmlər doktoru, professor.**

## Qaz təsərrüfatı infrastrukturunda genişləndirmə işləri

SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi tərəfindən respublikanın yaşayış məntəqələrinə təbii qazın bərpası, istehlakçıların qaz təchizatının yaxşılaşdırılması, bölgələrin qazlaşdırılması, qaz kəmərlərinin və avadanlıqların yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilməkdədir. Tərtib edilmiş tədbirlər proqramına uyğun olaraq, Birlik tərəfindən nəzərdə tutulmuş işlərin icrası ilə əlaqədar ilk növbədə kənd və qəsəbələrin daşıyıcı qaz kəmərlərinin təmiri və bərpası, kəmərlər üzərində quraşdırılmış istismar müddəti bitmiş avadanlıqların yeniləri ilə əvəz edilməsi, sonrakı mərhələdə isə mövcud qaz paylayıcı şəbəkələrin, küçə və dalanların qaz xətlərinin yenidən qurulması, eləcə də hər bir istehlakçının mənzilinə qaz sayğaclarının quraşdırılması işləri davam etdirilir.



Respublika ərazisində, o cümlədən Bakı şəhəri, ətraf qəsəbə və kəndlərdə abonentlərin qaz təchizatının yaxşılaşdırılması və istismara yararsız vəziyyətdə olan qaz kəmərlərinin yenidən qurulması məqsədilə cari ilin yanvar-mart ayları ərzində 162,5 km müxtəlif diametrli yeni qaz kəmərləri çəkilmiş, 113,8 km qaz kəmərləri əsaslı təmir edilmiş, regionlar üzrə 18 qəsəbə, kənd və yeni salınmış yaşayış massivində qazlaşdırma işlərinə başlanılmış, o cümlədən İsmayıllı rayonunun 655 fərdi evdən ibarət Qalacıq kəndində tikinti-quraşdırma işləri yekunlaşdırılaraq təbii qazın verilməsi təmin edilmişdir. Yeni qazlaşdırılan yaşayış sahələrində qaz şəbəkəsinin qurulmasında “bir pilləli” tənzimləmə sistemi tətbiq edilmişdir ki, bu da hər bir abonentin fərdi qaz tənzimləyicidən istifadə etməsinə və istehlakçılara ötürülən qazın sabit rejimdə saxlanılmasına zəmin yaradır.

## Ağacəkmə kampaniyası

Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) və Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) birgə təşkilatçılığı ilə aprelin 5-də Bakı-Şamaxı magistral avtomobil yolunun 27-ci kilometrliyində ağacəkmə kampaniyası keçirilib. ARDNF-in 20 illik yubileyinin keçirilməsinə dair planda nəzərdə tutulan bu tədbir “Bu yaz özün bir təbiət yarat!” devizi ilə başladılan yaz ağacəkmə kampaniyası çərçivəsində təşkil edilib.



ARDNF-in əməkdaşları tərəfindən ağacəkmə kampaniyasında 1,5 hektar ərazidə 1000-dən artıq badam ağacı əkilib. Əkilən ağac tingləri ETSN-in Azəryaşlandşaft ASC və Meşələrin İnkişafı Departamentinin tinglik sahələrində yetişdirilib.

Kampaniyanın keçirilməsində fəaliyyətinin başlıca missiyası ölkənin tükənən təbii sərvətlərdən əldə olunan gəlirlərinin toplanması və Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin daimi gəlir mənbəyinə çevrilməsi olan ARDNF-in məqsədi ölkənin meşə ehtiyatlarının artırılması və ekoloji mühitin mühafizəsinə dəstək verməkdir.

## Energetika Nazirliyi tərəfindən I rübdə 34 icazə verilib

Energetika Nazirliyi tərəfindən 2019-cu ilin I rübü üzrə ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, idxalı və tranziti üzrə 34 icazə verilib, - qurumun mətbuat xidmətindən “Respublika” qəzetinə verilən məlumatda bildirilir.

- Bu icazələrdən 25-i ixrac nəzarətinə düşən malların idxalı, 1-i ixrac nəzarətinə düşən malların ixracı, 8-i isə ixrac nəzarətinə düşən malların tranziti ilə bağlı olub.

Rüb ərzində verilmiş icazələrin 32-si 5 saylı “ASAN xidmət” mərkəzi vasitəsilə həyata keçirilib.

Qeyd edək ki, Energetika Nazirliyi tərəfindən hazırda 3 növ icazənin “ASAN xidmət” mərkəzi vasitəsilə verilməsi həyata keçirilir. Bura ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazə, mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən əşyaların dövriyyəsinə icazə, habelə ixrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi daxildir.

**“Respublika”.**


## BİLDİRİŞ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 1 saylı Respublika Psixiatriya Xəstəxanası 16 aprel 2019-cu il tarixdə saat 10:00-da Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclərin (qazanxanada qızdırıcı qazanların cari təmiri işləri) satınalınmasının kotirovka sorğusunu keçirir.

**Ünvan:** *Sabunçu rayonu, Maştağa qəsəbəsi, Axund Şeyx Hüseyn küçəsi 155*

**Əlaqə telefonu:**
*(012) 455-10-91*

**Tender Komissiyası.**

“SSS-TEL” MMC-nin adına Vergilər Departamenti tərəfindən verilən 8301293431 saylı VÖEN itdiyi üçün etibarsız sayılır.



**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Nəriman CAVADOV**

● **Çapa imzalanmışdır**
**06.04.2019**